AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİ

P O L İ S A K A D E M İ Y A S I

«DAXİLİ İŞLƏR ORQANLARININ ƏMƏLİYYAT-AXTARIŞ FƏALİYYƏTİ»

K A F E D R A S I

«Cinayət-axtarış hüququ» fənni üzrə

M Ü H A Z İ R Ə

Mövzu № 6

«Vətəndaşların konstitusion hüquqlarını məhdudlaşdırmayan əməliyyat-axtarış tədbirləri»

vaxt – 4 saat
mühazirə – 2 saat
seminar – 2 saat

Tərtib etdi: «DİO-nun ƏAF» kafedrasının baş müəllimi, polis polkovnik-leytenantı

Salmanzadə Nurəddin

Mühazirənin mətni «DİO-nun ƏAF» kafedrasının iclasında müzakirə edilib bəyənilmişdir. Protokol № ___ «____»_____2018-ci il

BAKI – 2018

Mövzu № 6

«Vətəndaşların konstitusion hüquqlarını məhdudlaşdırmayan əməliyyat-axtarış tədbirləri»

<u>Mühazirənin planı</u>:

GİRİŞ

1. Əməliyyat-axtarış tədbirlərinin anlayışı, mahiyyəti, hüquqi əsasları və təsnifatı.
2. Vətəndaşların konstitusion hüquqlarını məhdudlaşdırmayan əməliyyat-axtarış tədbirlərinin növləri, məzmunu, obyekt və subyektləri.
3. Vətəndaşların konstitusion hüquqlarını məhdudlaşdırmayan əməliyyat-axtarış tədbirlərinin tətbiq olunmasının ümumi qaydası və şərtləri

NƏTİCƏ

ƏDƏBİYYAT:

1. Azərbaycan Respublikası Konstitusiyası. B. 1995
2. Azərbaycan Respublikasının "ƏAF haqqında" Qanunu. mad. 1, 10-14 Bakı, 1999;
3. Azərbaycan Respublikasının «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» Qanunu. Bakı, 28.06.2005. mad. 15, 24, 3032;
4. «Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı»nın təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 27.12.2011-ci il tarixli Sərəncamı;
5. «Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinin səlahiyyət bölgüsü haqqında» Azərbaycan Respublikası Prezidentinin 19.06.2001-ci il tarixli Fərmanı
6. E.Mahmudov, Ə.Şəfiyev, M.Məhərrəmov. «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununa şərhlər». Bakı, 2007. səh. 47-88;
7. Ş.Hüseynov, R.Nəsirov, E.Muradov. Əməliyyat-axtarış fəaliyyətinin əsasları. Dərs vəsaiti. Bakı, 2008. səh. 106-121;
8. F.Məmmədov, M.Mustafayev. Cinayət-axtarış hüququnun əsasları. Dərs vəsaiti. Bakı, 2002. səh. 129-149, 166-175;
9. F.Muradov, N.Salmanzadə. "Əməliyyat-axtarış tədbirləri". Dərs vəsaiti. Bakı, 2015.
10. F.Muradov, N.Salmanzadə. "Cinayət-axtarış hüququ". Müh. toplusu, Dərs vəsaiti. Bakı, 2018.
11. F.Muradov, N.Salmanzadə. «Cinayət-axtarış hüququnun əsasları. 100 suala 100 cavab». Dərs vəsaiti. Bakı, 2014. səh. 27-60;
12. A.A.Çuvilëv. Operativno-rozısknoe pravo. Moskva, 1999;
13. Operativno-rozısknoe pravo. Uçebnik (pod red. K.K.Qorəinova, V.S.Ovçinskoqo, Q.K.Sinilova). Moskva, 2010. str. 281-288.

GİRİŞ

Cinayətkarlıq hər zaman cəmiyyətin təməlini sarsıdan, onun üçün ictimai təhlükə yaradan mənfi bir amilə çevrilmişdir. Məhz bu baxımdan cinayətkarlığa qarşı mübarizə bütün dövrlərdə dövlətlərin qarşısında duran əsas vəzifələrdən biri olmuşdur.

Cinayətkarlığa qarşı mübarizədə dövlət müxtəlif üsul və vasitələrdən istifadə etməklə, bu istiqamətdə fəaliyyətini müvafiq orqanlar vasitəsilə həyata keçirir. Bunların sırasında qeyri-aşkar üsul və vasitələrin əhəmiyyəti daha yüksəkdir. Cinayətlərin qarşısının alınmasında və üstünün açılmasında qeyri-aşkar üsul və vasitələrdən istifadə edilməsi uzun tarixi keçmişə malik olub, hüquqi fəaliyyətin sosial əhəmiyyətli növlərindən biri hesab olumuşdur. Cinayətkarlığa qarşı mübarizədə qeyri-aşkar üsul və vasitələrdən istifadə edilməsi bu gün də öz mühüm əhəmiyyətini itirməmiş və həmin fəaliyyəti onlarsız təsəvürr etmək mümkün deyildir.

Cinayətkarlığa qarşı mübarizədə müvafiq dövlət orqanları, o cümlədən daxili işlər orqanları öz fəaliyyətini bir neçə sahədə həyata keçirirlər ki, onlardan biri əməliyyat-axtarış fəaliyyətinin üsul, metod və tədbirlərindən istifadə etməklə cinayətlərin qarşısının alınması və açılmasıdır. Cinayətkarlıqla mübarizədə istifadə olunan qeyri-aşkar üsul, metod və vasitələr əməliyyat-axtarış fəaliyyətinin əsas elementləri hesab olunur. Bu baxımdan əməliyyat-axtarış fəaliyyətinin metod, üsul, metod və tədbirlərinin təhlil olunaraq öyrənilməsi məqsədəuyğun hesab olunur.

Cinayətkarlığa qarşı mübarizədə əməliyyat-axtarış fəaliyyətinin əsas hərəkətverici elementi əməliyyat-axtarış tədbirləridir. Əməliyyat-axtarış tədbirləri olmadan belə bir fəaliyyəti təsəvvür etmək mümkün deyildir. Məhz həmin tədbirlərin həyata keçirilməsi nəticəsində qeyri-aşkar şəraitdə hazırlanan, törədilən cinayətlərin qarşısının alınması, açılması və onu törədən şəxslərin müəyyən olunması üçün geniş imkanlar yaranır.

Əməliyyat-axtarış tədbirləri vətəndaşların konstitusion hüquqlarını məhdudlaşdıran və məhdudlaşdırmayan tədbirlərə bölünür.

Bu mövzuya aid mühazirədə biz konstitusion hüquqları məhdudlaşdırmayan əməliyyat-axtarış tədbirlərinin anlayışı, məzmunu, hüquqi əsasları, təsnifatı, həyata keçirilməsi qaydası və ona verilən tələblər barədə məlumat verəcəyik.

Sual 1.
Əməliyyat-axtarış tədbirlərinin anlayışı, mahiyyəti, hüquqi əsasları və təsnifatı

Cinayətkarlıq və ona qarşı mübarizənin tarixini araşdırdıqda, onun dövlətin meydana gəldiyi dövrə təsadüf etdiyini müəyyən edirik. Tarixdən bizə məlumdur ki, cəmiyyətdə siniflərin meydana gəlməsi və əmlak bərabərsizliyinin yaranması nəticəsində dövlət meydana gəlmişdir. Dövlət meydana gəldiyi vaxtdan davranış qaydalarını (icazə verən və qadağan edən) müəyyən etməyə başlamışdır. O, cəmiyyətdə insanları, onların mülkiyyətində olan əmlakı, eləcə də dövlətin özünün ictimai təhlükəli qəsdlərdən müdafiə etmək funksiyasını da öz üzərinə götürmüşdür. O vaxtdan müasir dövrümüzə qədər cinayətlərin baş verməməsində əsasən maraqlı tərəf kimi çıxış edir və təbii ki, bu cinayətlərin qarşısını almaq üçün müəyyən metodlardan istifadə etmək zərurəti yaranmışdır. Tarixin müxtəlif dövrlərində törədilən cinayətlər əksər hallarda gizli şəraitdə baş verirdi və onu törədənlər öz əməllərini gizli saxlamağa səy göstərirdilər. Belə hallarda çox zaman aşkar üsul və metodlarla bu cinayətlərin üstünü ancaq onları törədənləri müəyyən etmək mümkün olmurdu. Bunun üçün dövlətin müvafiq aparatları cinayətkarlığa qarşı mübarizədə gizli üsul və metodlardan istifadə edirdilər. Məhz həmin vaxtlardan qeyd olunan gizli üsul və metodları, onların tətbiqi formalarını özündə birləşdirən əməliyyat-axtarış fəaliyyətinin inkişaf tarixi başlanmışdır ki, müasir dövrümüzdə də cinayətkarlığa qarşı mübarizədə bu, dövlətin əsas fəaliyyət sahəsidir.

Müasir dövrümüzdə əməliyyat marağı kəsb edən şəxslər və faktlar haqqında məxfi informasiyanın toplanması və yoxlanılması üçün, eyni zamanda dövlət maraqlarına və vətəndaşların konstitusion hüquq və azadlıqlarına qəsdlərlə mübarizədə əməliyyat-axtarış fəaliyyəti sahəsində fəal istifadə edilən üsul, metod və tədbirləri ən səmərəli vasitə kimi qalmaqda davam edir və çox mühüm əhəmiyyət kəsb edir.

28 oktyabr 1999-cu il tarixdə qəbul olunmuş «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanun əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsində istifadə olunan konkret əməliyyat-axtarış tədbirlərini müəyyən etmişdir. Həmin tədbirlərin məzmunundan və xarakterik xüsusiyyətlərindən irəli gələrək qeyd etməliyik ki, «ƏAF haqqında» Qanun qəbul edilməmişdən əvvəl bəzi tədbirlər əməliyyat-axtarış fəaliyyətini tənzimləyən daxili normativ aktlarda və bu fəaliyyətlə bağlı məxfi ədəbiyyatlarda metod kimi qeyd olunurdu. Hazırda qüvvədə olan «ƏAF haqqında» Qanunla bu tədbirlərin siyahısı konkretləşdirilməklə yanaşı, onların həyata keçirilmə qaydaları, onlara verilən tələblər və s. öz əksini tapmışdır. «ƏAF haqqında» Qanunun 1-ci maddəsində əməliyyat-axtarış fəaliyyətinə anlayış verilərək qeyd olunur ki, əməliyyat-axtarış fəaliyyəti müvafiq dövlət orqanları tərəfindən aşkar və qeyri-aşkar üsullarla bu Qanunla müəyyən edilmiş tədbirlərin həyata keçirilməsidir. Həmin tədbirlərin siyahısı «ƏAF haqqında» Qanunun 10-cu maddəsində öz əksini tapmışdır.

Əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlar öz səlahiyyətləri çərçivəsində həmin əməliyyat-axtarış tədbirlərini keçirməklə, insan həyatını, sağlamlığını, hüquq və azadlıqlarını, hüquqi şəxslərin qanuni mənafelərini, dövlət sirrini, habelə milli təhlükəsizliyi cinayətkar qəsdlərdən birbaşa müdafiə etmək məqsədi güdürlər.

Qanunun 10-cu maddəsində əməliyyat-axtarış tədbirlərinin siyahısı verilsə də, konkret anlayışı qeyd olunmamışdır. Lakin, əməliyyat-axtarış tədbirlərinin məzmununa əsasən, onlara aşağıdakı kimi anlayış vermək olar: «Əməliyyat-axtarış tədbirləri dedikdə, səlahiyyətli subyektlər tərəfindən Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş səbəblər və əsaslar olduğu halda və nəzərdə tutulmuş formada əməliyyat-axtarış fəaliyyətinin vəzifələrinin yerinə yetirilməsi üçün faktiki məlumatların əldə edilməsi vasitələri başa düşülür. Əməliyyat-axtarış fəaliyyətinin nəzəri əsasları

barədə yazılmış bəzi ədəbiyyatlarda isə tam sadə formada qeyd olunaraq anlayış verilir ki, «Əməliyyat-axtarış tədbirləri əməliyyat-axtarış fəaliyyətinin tərkib elementləri olub, əməliyyat-axtarış fəaliyyətinin vəzifələrinin həll edilməsinə istiqamətlənmiş, bir-biri ilə qarşılıqlı əlaqədə olan aşkar və qeyri-aşkar üsullarla həyata keçirilən hərəkətlər məcmusudur».

«ƏAF haqqında» Qanunun 10-cu maddəsində qeyd olunmuş siyahıya aşağıdakı əməliyyat-axtarış tədbirləri daxil edilmişdir:

1. vətəndaşların sorğusu;
2. soraqlaşma;
3. telefon danışıqlarına qulaq asma;
4. poçt, teleqraf, digər göndərişlərin yoxlanılması;
5.texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanın çıxarılması;
6. məhkumların məktublarının yoxlanılması;
7. nəqliyyat vasitələrinə baxış keçirilməsi;
8.binalara, o cümlədən yaşayış yerlərinə, hasarlanmış tikinti obyektlərinə, qurğulara və torpaq sahələrinə daxil olma və baxış keçirmə;
9.binaların, o cümlədən yaşayış yerlərinin, hasarlanmış tikinti obyektlərinin, qurğuların, torpaq sahələrinin, nəqliyyat vasitələrinin və digər obyektlərin müşahidəsi;
10. insanların güdülməsi;
11. şəxsiyyətin eyniləşdirilməsi;
12. nəzarət qaydasında mal alınması;
13. əşya və sənədlərin tədqiqi;
14. müqayisəli tədqiq üçün nümunələrin toplanması;
15. nəzarətli göndəriş;
16. cinayətkar qruplara və ya kriminogen obyektlərə daxil edilməsi;
17. hüquqi şəxsin yaradılması;
18. əməliyyat eksperimenti, yəni cinayətkar fəaliyyəti təqlid edən davranış modelinin tətbiqi.

Qanunda tam əksini tapmış bu tədbirlərin siyahısı yalnız qanunla dəyişdirilə bilər («ƏAF haqqında» Qanun, maddə 10, II hissə).

Əməliyyat-axtarış tədbirlərini təhlil edərkən, onun tərkibində aşağıdakı bir-biri ilə bağlı elementləri ayırıb göstərmək olar. Buraya əməliyyat-axtarış tədbirlərinin obyekti, məqsədli hərəkətlərin əlaqələndirilməsi, onu həyata keçirən subyektlər, onun səmərəliliyini artıran komleks təşkilati fəndlər, üsullar və s. aiddir.

Əməliyyat-axtarış tədbirlərinin obyekti cinayəti hazırlayan, törədən və ya törətmiş şəxslər, habelə məhkəmə, istintaq və təhqiqat orqanlarından gizlənən, cəza çəkməkdən boyun qaçıran və ya itkin düşmüş şəxslərdir. Bundan başqa, əməliyyat-axtarış tədbirlərinin obyektinə şübhəli şəxs barədə faktiki məlumatları özündə əks etdirən kriminal hadisələr və hallar da aid edilir.

Əməliyyat-axtarış tədbirlərinin məqsədi onun əlavə olunmasına yönəlmiş proqnozlaşdırılmış nəticədir. Məqsədə konkret əməliyyat marağı kəsb edən məlumatların əldə olunması ilə nail olunan və xüsusi vəzifələrin həlli həyata keçirilir.

Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinin səmərəliliyi xeyli dərəcədə əməliyyat aparatı əməkdaşları tərəfindən müəyyən hərəkətlərin bacarıqla əlaqələndirilməsindən (uzlaşdırılmasından) asılıdır. Bunlara konspirasiya fəndləri və faktiki məlumatların toplanması, qeydiyyatı, yoxlanılması və istifadə edilməsi üsulları daxildir. Əməliyyat-axtarış tədbirlərinin xüsusiyyətlərindən biri pərdələnmə üsullarından istifadə etməkdir.

«Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunun 10-cu maddəsində əks olunmuş əməliyyat-axtarış tədbirlərinin mahiyyətinin təhlili göstərir ki, onların hər birinin həyata keçirilməsi bu və ya digər formada vətəndaşların konstiutsion hüquqlarının

məhdudlaşdırılmasına səbəb ola bilər. Ancaq bu əməliyyat-axtarış tədbirlərinin heç də hamısı üçün eyni dərəcədə xarakterik deyildir. Məsələn, vətəndaşların sorğusu, yaxud soraqlaşma əməliyyat-axtarış tədbirləri və s. Onların həyata keçirilməsi vətəndaşların hüquq və azadlıqlarının məhdudlaşdırılması ilə müşayiət olunmur.

Telefon danışıqlarına qulaq asma, texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanın çıxarılması, poçt, teleqraf və digər göndərişlərin yoxlanılması, binalara, o cümlədən yaşayış binalarına, habelə digər qapalı tikililərə, qurğulara və torpaq sahələrinə daxil olma və baxış keçirmə, insanların güdülməsi kimi əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi bütün hallarda vətəndaşların konstitusion hüquqlarının məhdudlaşdırılması ilə müşayiət olunur. Odur ki, bu əlamətə görə əməliyyat-axtarış tədbirlərini iki qrupa bölmək olar:

1.Vətəndaşların konstitusion hüquq və azadlıqlarını məhdudlaşdıran əməliyyat-axtarış tədbirləri;

2.Vətəndaşların konstitusion hüquq və azadlıqlarını məhdudlaşdırmayan əməliyyat-axtarış tədbirləri.

Vətəndaşların konstitusion hüquq və azadlıqlarını məhdudlaşdırmayan əməliyyat-axtarış tədbirlərinin mahiyyətini şərh edərkən, ilk növbədə, məhdudlaşdırma obyektini təşkil edən hüquq və azadlıqların dairəsini müəyyən etməli və eyni zamanda «ƏAF haqqında» Qanunun 10-cu maddəsində qeyd olunan tədbirlərin səciyəvi xüsusiyyətlərindən asılı olaraq onların hansı növünün bu hüquqlarla əlaqəli olub-olmamasını müəyyən etmək vacibdir. Biz bu hüquqları məhdudlaşdırmayan tədbirlərin ayrı-ayrı növlərinin məzmun və mahiyyətini mövzunun 2-ci sualında təhlil edəcəyik. Lakin, ümumilikdə onu qeyd etmək olar ki, Azərbaycan Respublikası Konstitusiyasının III fəslində əsas insan və vətəndaş hüquq və azadlıqları (mad. 24-71) təsbit olunmuşdur ki, həmin hüquq və azadlıqların təmin olunması Konstitusiyanın 12-ci maddəsinə əsasən dövlətin ali məqsədidir. Bundan irəli gələrək, insan hüquq və azadlıqlarının qorunması bütün hakimiyyət orqanlarının borcudur. Dövlətin bütün hüquqi fəaliyyət sahəsində, o cümlədən əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi zamanı da bu hüquqların təmin olunması qanunvericiliyin tələbidir. Lakin, bəzi əməliyyat-axtarış tədbirləri mahiyyətinə və həyata keçirilmə formalarına görə vətəndaşların qanunla müəyyən olunmuş konstitusion hüquqlarını (şəxsi toxunulmazlıq, mənzil toxunulmazlığı və s.) məhdudlaşdıran tədbirlərdir. Həmin tədbirlərin məzmunu ilə «Cinayət-axtarış hüququ» fənninin növbəti mövzusunda məlumat veriləcək. Bu mövzuda təhlil olunan əməliyyat-axtarış tədbirləri məzmununa, mahiyyətinə və həyata keçirilmə formasına görə vətəndaşların hüquqlarını məhdudlaşdırmır. Ona görə ki, həmin tədbirlər tətbiq olunarkən vətəndaşların hüquq və azadlıqlarına müdaxilə edilmir və bunun üçün zərurət yaranmır. Bu tədbirlərə aşağıdakılar aiddir:

1. vətəndaşların sorğusu;
2. soraqlaşma;
3. məhkumların məktublarının yoxlanılmaıs;
4. nəqliyyat vasitələrinə baxış keçirilməsi;
5. şəxsiyyətin eyniləşdirilməsi;
6. nəzarət qaydasında mal alınması;
7. əşya və sənədlərin tədqiqi;
8. müqayisəli tədqiq üçün nümunələrin toplanması;
9. nəzarətli göndəriş;
10. cinayətkar qruplara və ya kriminogen obyektlərə daxil edilməsi;
11. hüquqi şəxsin yaradılması;
12. əməliyyat eksperimenti, yəni cinayətkar fəaliyyəti təqlid edən davranış modelinin tətbiqi.

«ƏAF haqqında» Qanunun 10-cu maddəsinin I hissəsinin 9-cu bəndində nəzərdə tutulmuş «binaların, o cümlədən yaşayış yerlərinin, hasarlanmış tikinti

obyektlərinin, qurğuların, torpaq sahələrinin, nəqliyyat vasitələrinin və digər obyektlərin müşahidəsi əməliyyat-axtarış tədbiri vətəndaşların konstitusion hüquqlarının məhdudlaşdırılması meyarına nisbətdə qarışıq tədbirdir. Yəni qanunla müəyyən edilmiş istisna hallarda konstitusion hüquqları məhdudlaşdıran tədbir hesab olunur. Belə ki, «ƏAF haqqında» Qanunun 10-cu maddəsinin III hissəsinə əsasən texniki vasitələrdən istifadə etməklə və ya səsyazan, video, foto, kino və digər çəkiliş cihazlarının quraşdırılması yolu ilə yaşayış yerinə münasibətdə bu əməliyyat-axtarış tədbiri məhkəmənin (hakimin) qərarı əsasında həyata keçirilir. Çün ki, tədbirin mahiyyəti ondan ibarətdir ki, yuxarıda qeyd olunan texniki vasitələr tətbiq edilməklə, şəxsin mənzili və onun daxilində baş verən proseslər izlənilir, müşahidə edilir və əsas məqsəd hazırlanan və törədilən cinvayətlərin qarşısının alınması və törədilmiş cinayətlərin əməliyyat yolu ilə açılmasından ibarətdir.

Bu tədbirin məhkəmə qərarına əsasən həyata keçirilməsi konstitusion hüquqların məhdudlaşdırılması ilə əlaqədardır. Belə ki, bu tədbir tətbiq edilərkən, şəxsin mənzilinin daxilində gedən proseslər izlənilir və bu artıq şəxsin mənzilinə müdaxilə etmək kimi qiymətləndirilir. Bu zaman şəxsin Azərbaycan Respublikası Konstitusiyasının 33-cü maddəsində nəzərdə tutulmuş «mənzil toxunulmazlığı hüququ» məhdudlaşır. Bu iki halda baş verir:

1. şəxsin xəbəri olmadan onun mənzilinə daxil olunur və onun mənzilində müşahidə aparılması üçün texniki avadanlıqlar quraşdırılır;

2. texniki avadanlıqlar quraşdırıldıqdan sonra ondan xəbərsiz onun mənzilində baş verən proseslər müşahidə olunur.

Müşahidə olunarkən, eyni zamanda Azərbaycan Respublikası Konstitusiyasının 32-ci maddəsində nəzərdə tutulmuş «şəxsi toxunulmazlıq hüququ» məhdudlaşdırılır. Çünki həmin maddənin II bəndinə əsasən, hər kəsin şəxsi və ailə həyatının sirrini saxlamaq hüququ vardır. Qanunla nəzərdə tutulan hallardan başqa, şəxsi və ailə həyatına müdaxilə etmək qadağandır. Qanunla müəyyən edilmiş hal dedikdə isə, bu hal Konstitusiyanın 32-ci maddəsinin IV bəndindən təsbit olunmuşdur. Belə ki, həmin bəndə əsasən, şəxsi toxunulmazlıq hüququ qanunla nəzərdə tutulmuş qaydada cinayətin qarşısını almaqdan və ya cinayət işinin istintaqı zamanı həqiqəti üzə çıxarmaqdan ötrü məhdudlaşdırıla bilər.

Bu tədbirin texniki vasitələrdən istifadə etməklə və ya səsyazan, video, foto, kino və digər çəkiliş cihazlarının quraşdırılması yolu ilə yaşayış yerində aparılması istisna olmaqla, qanunla nəzərdə tutulmuş digər hallarda (məsələn, küçədə, digər ictimai yerlərdə müşahidə aparılması və s.) tətbiqi şəxsin hüquqlarını məhdudlaşdırmır.

Vətəndaşların konstitusion hüquqlarını məhdudlaşdıran əməliyyat-axtarış tədbirləri «ƏAF haqqında» Qanunun 10-cu maddəsinin III hissəsinə əsasən məhkəmənin qərarı əsasında həyata keçirilə bilər. Bu baxımdan əməliyyat-axtarış tədbirlərini daha iki qrupa bölmək olar. Belə ki, məhkəmənin qərarı əsasında həyata keçirilən əməliyyat-axtarış tədbirləri (konstitusion hüquqları məhdudlaşdıran) və buna zərurət olmadan həyata keçirilən digər əməliyyat-axtarış tədbirləri (konstitusion hüquqları məhdudlaşdırmayan).

Bundan əlavə, həyata keçirilmə üsuluna görə də əməliyyat-axtarış tədbirlərini təsnifləşdirmək olar. Bu əlamətə görə onları qeyri-aşkar(gizli) və qarışıq üsullarla həyata keçirilən əməliyyat-axtarış tədbirlərinə bölmək olar. Məsələn, cinayətkar qruplara və kriminogen obyektlərə daxil etmə, əməliyyat eksperimenti, hüquqi şəxsin yaradılması, nəzarətli göndəriş kimi əməliyyat-axtarış tədbirləri bütün hallarda gizli formada həyata keçirilə bilər. Elə tədbirlər də vardır ki, onlar həm aşkar, həm də qeyri-aşkar formada həyata keçirilə bilər. Məsələn, vətəndaşların sorğusu, soraqlaşma, şəxsiyyətin eyniləşdirilməsi, nəzarət qaydasında mal alınması və s.

Bəzi əməliyyat-axtarış tədbirlərinin mahiyyətindən irəli gələrək, qeyd etmək olar ki, həmin tədbirlərin həyata keçirilməsində texniki vasitələrin rolu əsasdır və onların başlıca əlamətidir. Telefon danışıqlarına qulaq asma, texniki rabitə kanallarından və digər

texniki vasitələrdən informasiyanın çıxarılması kimi əməliyyat-axtarış tədbirləri yalnız texniki vasitələrdən istifadə etməklə həyata keçirilir. Ona görə onlar bəzi sənədlərdə və ədəbiyyatlarda digərlərindən fərqli olaraq əməliyyat-texniki tədbirlər adlandırırlar, baxmayaraq ki, digər əməliyyat-axtarış tədbirlərinin də həyata keçirilməsində bu və ya digər dərəcədə texniki vasitələrdən istifadə oluna bilər. Bu baxımdan əməliyyat-axtarış tədbirlərini digər bir əsasa-texniki vasitələrin istifadəsinə görə əməliyyat-texniki və texniki vasitəsiz tədbirlərə ayırmaq olar.

Qeyd olunanlardan əlavə əməliyyat-axtarış tədbirləri digər meyarlara uyğun olaraq da təsnif edilir:

İstiqamətinə və xarakterinə görə:

- kəşfiyyat xarakterli əməliyyat-axtarış tədbirləri (məsələn, vətəndaşların sorğusu; soraqlaşma və s.) ;
- axtarış xarakterli əməliyyat-axtarış tədbirləri(məsələn, binalara daxil olma və baxış keçirmə; əməliyyat ekspermenti və s.);
- təminedici əməliyyat-axtarış tədbirləri (məsələn, müqayisəli tədqiq üçün nümunələrin toplanması; əşya və sənədlərin tədqiqi və s.).

Müddətinə görə:

- qısa müddətli əməliyyat-axtarış tədbirləri(məsələn, vətəndaşların sorğusu; soraqlaşma və s.);
- uzun müddətli əməliyyat-axtarış tədbirləri (məsələn, insanların güdülməsi; gizli müşahidə; nəzarət qaydasında mal alınması və s.);

Subyektinə görə:

- ümumi subyektlər tərəfindən həyata keçirilən əməliyyat-axtarış tədbirləri (məsələn, vətəndaşların sorğusu; soraqlaşma; əməliyyat ekspermenti və s.). Yəni tədbirin tətbiqinə məhdudiyyət tətbiq edilmir və həmin tədbirlər ƏAF-ın bütün subyektləri tərəfindən həyata keçirilə bilər;
- ixtisaslaşmış subyektlər tərəfindən həyata keçirilən əməliyyat-axtarış tədbirləri(məsələn, məhkumların məktublarının yoxlanılması; telefon danışıqlarına qulaq asma və s.) Yəni tədbirin tətbiqinə məhdudiyyət tətbiq edilir. Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinin səlahiyyət bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanına əsasən telefon danışıqlarına qulaq asma əməliyyat-axtarış tədbiri yalnız Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən, məhkumların məktublarının yoxlanılması isə Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilə bilər.

Keçirilmə şərtlərinə görə:

- icazə tələb edən əməliyyat-axtarış tədbirləri (məsələn, nəzarətli göndəriş; insanların güdülməsi; əməliyyat ekspermenti və s.) Belə tədbirlər icazə əsasında(məhkəmənin və ya ƏAF subyektlərinin qərarı əsasında) həyata keçirilə bilər;
- icazə tələb etməyən əməliyyat-axtarış tədbirləri (məsələn, vətəndaşların sorğusu; soraqlaşma və s.) Belə tədbirlər əməliyyat müvəkkili tərəfindən sərbəst keçirilə bilər.

Tədbirin mürəkkəbliyinə görə:

- sadə əməliyyat-axtarış tədbirləri(məsələn, vətəndaşların sorğusu; soraqlaşma və s.);
- kompleks əməliyyat-axtarış tədbirləri(məsələn, binaların müşahidəsi; əməliyyat ekspermenti; nəzarətli göndəriş; müqayisəli tədqiq üçün nümunələrin toplanması; əşya və sənədlərin tədqiqi və s.).

Əməliyyat-axtarış tədbirləri dəqiq müəyyən edilmiş kəşfiyyat-axtarış xarakteri daşıyır. Bu ondan irəli gəlir ki, həmin tədbirlər əsasən gizli fəaliyyət göstərən, pərdələnmiş, əvvəlcədən yüksək səviyyədə hazırlanmış cinayəti törətməyə meyl edən və yaxud da artıq törətmiş şəxslərə qarşı aparılır.

Əməliyyat-axtarış tədbirləri aşağıdakı istiqamətlər üzrə həyata keçirilir:

- məlumatın əldə edilməsi;

- gizli (gizlədilmiş) cinayətlərin aşkar edilməsi;
- cinayət xarakterli fəaliyyətin əlamətlərinin və faktlarının müəyyən edilməsi;
- istintaqdan və məhkəmədən gizlənmiş şəxslərin axtarışı.

Bu istiqamətlərdən irəli gələrək, əməliyyat-axtarış tədbirlərini həyata keçirən şəxs öz fəaliyyətində aşağıdakıları rəhbər tutur:

1) konspirasiya;
2) aşkar və qeyri-aşkar qüvvə və vasitələrin uzlaşdırılması;
3) qanunçuluq;
4) məhkəmə qərarı ilə məxfi şəkildə informasiyanın əldə olunması üçün texniki vasitələrdən istifadə edilməsi;
5) bu tədbirlərin yalnız hazırlanan və ya törədilən cinayətlər üzrə həyata keçirilməsi;
6) yalnız cinayət işinin başlanması üçün kifayət qədər sübutlar olmadığı halda həyata keçirilməsi;
7) ölkənin təhlükəsizlik konsepsiyasına uyğun olaraq təhdidlər qarşısında qaldığı halda həyata keçirilməsi.

Kəşfiyyat xarakterli olması eyni zamanda bu tədbirləri həyata keçirən şəxslərdən də bəlli olur. Belə ki, gizli şəkildə hazırlanan və törədilən cinayətlərin qarşısının alınması da məhz gizli şəkildə fəaliyyət göstərən əməkdaşlar tərəfindən mümkündür.

Qeyd etdiyimiz kimi, əməliyyat-axtarış tədbirləri həm aşkar, həm də qeyri-aşkar şəkildə həyata keçirilir. Qeyri-aşkarlıq dedikdə, gözlənilməzlik və keçirilən tədbirlərin kənar şəxslərdən, xüsusən də obyektdən gizlədilməsi başa düşülür. Aşkarlıq dedikdə isə, keçirilən tədbirlərin məzmunu, məqsədi və iştirakçıları ətrafdakılardan və obyektdən gizlədilmir.

Əməliyyat-axtarış tədbirinin məqsədlərini bu tədbirlərin həyata keçirildiyi obyektlərin dairəsi müəyyənləşdirir. Həmin obyektlər aşağıdakılar ola bilər:

1) cinayət hazırlayan, törədən, yaxud törətmiş şəxslər;
2) məhkəmə, təhqiqat və istintaq orqanlarından gizlənən şəxslər;
3) cəza çəkməkdən boyun qaçıran şəxslər;
4) xəbərsiz itkin düşmüşlər;
5) müdafiə olunanlar;
6) dövlət sirri ilə işləməyə buraxılan şəxslər;
7) məxfi əməkdaşlığa cəlb ediləcək şəxslər.

Əməliyyat-axtarış tədbirini əməliyyat-axtarış fəaliyyətinin digər tərkib hissələrindən fərqləndirən əlamətlərdən biri qanunda nəzərdə tutulmuş tədbirin keçirilməsi üçün mənbə və şəraitin mövcudluğudur. Yalnız əməliyyat-axtarış tədbiri keçirilmə səbəbinə, əsasına və şərtinə malik olmalıdır.

Əməliyyat-axtarış tədbirlərinin təhlili, onun mahiyyətini əks etdirən aşağıdakı xarakterik cəhətləri müəyyən etməyə imkan verir:

1.Əməliyyat-axtarış tədbirləri hüquqi realizə üçün informasiyanın toplanmasına yönəlir. Belə ki, əməliyyat-axtarış fəaliyyətini həyata keçirən subyektin informasiyanı bilavasitə əldə etmə prosesi müəyyən məqsədlə birləşmiş (cinayətkar qəsddən müdafiə) və əməliyyat-axtarış fəaliyyətinin vəzifələrinin icrasına yönəldilmiş hərəkətlər məcmusudur.

2. Əməliyyat-axtarış tədbirləri əməliyyat-axtarış fəaliyyətinin tərkib hissəsidir. Bu əlamət qanunvericinin müəyyən etdiyi əməliyyat-axtarış fəaliyyəti anlayışından doğur. Qanunvericiyə görə bu cür fəaliyyət əməliyyat-axtarış tədbirlərinin aparılması vasitəsilə həyata keçirilir.

3. Əməliyyat-axtarış tədbirləri dövlət orqanlarının fəaliyyətini nəzərdə tutur. «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanuna müvafiq olaraq əməliyyat-axtarış fəaliyyəti dövlət fəaliyyətidir. Dövlət orqanları və vəzifəli şəxslərdən başqa heç kimin əməliyyat-axtarış fəaliyyətini keçirmək hüququ yoxdur. Müvafiq olaraq əməliyyat-axtarış

tədbirləri, əməliyyat-axtarış fəaliyyətinin hissəsi kimi, yalnız dövlət orqanları və vəzifəli şəxsləri tərəfindən aparıla bilər. Beləliklə, əməliyyat-axtarış tədbirləri fərdi şəxslər və qeyri-dövlət orqanları tərəfindən aparılmır.

4. Əməliyyat-axtarış tədbirləri birbaşa, bilavasitə əməliyyat-axtarış fəaliyyəti vəzifələrinin həllinə yönəldilmişdir. Göstərilən əlamət bu cür tədbirin istiqamətini, məqsədini müəyyənləşdirir. Əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanların vəzifəli şəxslərinin hərəkətləri olduqca müxtəlifdir: xüsusi maliyyə işləri, maddi- texniki təminat, təşkilati və rəhbər iş və s. Bütün bu fəaliyyət son nəticədə əməliyyat-axtarış vəzifələrinə nail olunmağa yönəldilmişdir, lakin onlar əməliyyat-axtarış fəaliyyətinin vəzifələrinin birbaşa həllinə istiqamətlənmir. Belə ki, sadəcə yeni xüsusi texnikanın əldə edilmə faktı nəticə verməyəcəkdir. Nəticəni müvafiq tədbirin aparılması gedişində əldə etmək olar. Bu əlamət əməliyyat-axtarış tədbirlərini əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanların digər fəaliyyətindən fərqləndirir.

5. Əməliyyat-axtarış tədbirləri yalnız «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunda birbaşa göstərilmiş səbəblər; əsaslar və şərtlər mövcud olduqda aparılır.

6. Əməliyyat-axtarış tədbirləri aşkar və qeyri-aşkar formada həyata keçirilir. Bu tədbirlərin təşkili və taktikası dövlət sirri hesab edilir. Bu o deməkdir ki, əməliyyat-axtarış tədbirlərinin aparılması taktikasını və qaydasını təşkil edən üsullar, metodlar və vasitələr məxfi saxlanılır. Haqqında bəhs edilən əlamət, həmçinin əməliyyat-axtarış tədbirlərini əməliyyat-axtarış fəaliyyətinin tərkib hissəsi olan digər hərəkətlərdən, məsələn, əməliyyat-axtarış fəaliyyəti nəticələrinin cinayət prosesinə təqdim olunma qaydasından fərqləndirir. Bu əlamət əməliyyat-axtarış tədbirləri keçirilərkən səmərəli nəticə əldə olunmasına kömək edir.

7. Əməliyyat-axtarış fəaliyyətinin məqsədi əxlaq və mənəviyyat tələblərinə uyğun gəlməlidir. Bu, «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunun ruhundan, belə fəaliyyətin mahiyyətindən irəli gəlir. Əməliyyat-axtarış tədbirləri cəmiyyət və dövlətin təhlükəsizliyinin təmin edilməsi, insan hüquq və azadlıqlarının, insan həyatının, sağlamlığının və mülkiyyətin cinayətkar qəsdən müdafiəsi məqsədilə aparılır. Burada xüsusi olaraq qeyd etmək istərdik ki, əməliyyat-axtarış tədbirinin məhz məqsədini nəzərdə tuturuq. Əxlaq və mənəviyyat fəlsəfi kateqoriyadır. Yəqin ki, telefon danışıqlarına qulaq asmanı, başqalarının məktublarının oxunmasını, şəxsi həyatın müşahidə altına alınmasını və s. bütünlüklə mənəvi və ya əxlaqi hərəkət kimi qəbul etmək olmaz. Ancaq əməliyyat-axtarış tədbirinin məqsədlərinin vacibliyini nəzərə almaqla, bu hərəkətlər zəruridir və əxlaq qaydalarına uyğundur. Bu zaman, əlbəttə, tədbirin keçirilməsində qeyri-qanuni hərəkətlər yolverilməzdir. Əməliyyat-axtarış tədbirinin əxlaq qaydalarına uyğunluğu onu cinayətkarlıqla mübarizə məqsədilə deyil, şəxsi və çox vaxt isə tamahkar maraq naminə sorğunu aparan digər şəxslərin (məsələn, xususi xəfiyyələrin) oxşar hərəkətlərindən fərqləndirir.

Əməliyyat-axtarış tədbirlərinin cinayətkarlığa qarşı mübarizədə tətbiq olunması müvafiq qanunvericiliyə uyğun olaraq həyata keçirilir. Bununla əlaqədar bütün məsələləri tənzimləyən hüquqi normalar müxtəlif normativ-hüquqi aktlarda birbaşa və ya dolayı olaraq öz əksini tarmışdır ki, həmin normalar əməliyyat-axtarış tədbirlərinin hüquqi əsasını təşkil edir. Bu baxımdan, əməliyyat-axtarış tədbirlərinin hüquqi əsası dedikdə, əməliyyat-axtarış tədbirlərini müəyyən edən, cinayətkarlığa qarşı mübarizədə tətbiq olunmasının hüquqi, təşkilati-struktur və taktiki məsələlərini tənzimləyən normalar sistemi başa düşülür.

28 oktyabr 1999-cu ildə qəbul olunmuş «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunun 2-ci maddəsində qeyd olunmuşdur ki, «Əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, bu qanundan, Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarından, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir. Əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqan öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının

qanunvericiliyinə uyğun olaraq əməliyyat-axtarış tədbirlərinin təşkilini və taktikasını tənzimləyən normativ-hüquqi aktlar qəbul edirlər». Qeyd olunanları nəzərə alaraq, əməliyyat-axtarış tədbirlərinin hüquqi əsasını aşağıdakı formada təsnifləşdirmək olar:

- Azərbaycan Respublikasının Konstitusiyası;
- Azərbaycan Respublikasının qanunları;
- Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları;
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncam və qərarları;
- Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr;
- Əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanların qəbul etdikləri normativ-hüquqi aktlar.

Azərbaycan Respublikasının Konstitusiyası ən yüksək hüquqi qüvvəyə malik olan ali qanun olub, qanunvericilik sisteminin əsasını təşkil edir. Bütün fəaliyyət sahələrində olduğu kimi, əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsinin tənzimlənməsi ilə əlaqədar mövcud olan bütün qanunvericilik aktları da Konstitusiyanın müddəaları əsasında hazırlanır və bütün normalar həmin müddəalara uyğun olmalıdır.

Konstitusiyadan sonra əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinin hüquqi nizamlanmasında əsas yeri Azərbaycan Respublikasının qanunları tutur. Bu qanunlardan ən mühüm və baza roluna malik olanı Azərbaycan Respublikasının 28.10.1999-cu il tarixli «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunu hesab olunur. Bu qanunla əməliyyat-axtarış tədbirlərinin siyahısı müəyyən olunur, onların tətbiq olunmasının təşkilati, taktiki məsələləri tənzimlənir, şərtləri müəyyən olunur.

Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinin təşkili ilə bağlı məsələlərin tənzimlənməsində Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən qəbul olunmuş normativ-hüquqi aktlar mühüm əhəmiyyət kəsb edir. Bunlara aşağıdakıları misal göstərmək olar:

- «Əməliyyat-axtarış fəaliyyəti prosesində gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş xüsusi texniki vasitələrin növlərinin siyahısının təsdiq edilməsi haqqında» Nazirlər Kabinetinin 11 avqust 2000-ci il tarixli 139-6 nömrəli qərarı;
- «Əməliyyat-axtarış fəaliyyəti üçün vasitələrin xərclənməsi qaydaları və normalarının təsdiq edilməsi haqqında» Nazirlər Kabinetinin 28 noyabr 2002-ci il tarixli 190-8 nömrəli qərarı və s.

Əməliyyat-axtarış tədbirlərinin hüquqi əsasını təşkil edən normativ-hüquqi aktlar sırasına aid olan, Azərbaycan Respublikası Prezidentinin aşağıda qeyd olunmuş fərman və sərəncamlarını misal göstərmək olar:

- «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi ilə mübarizə haqqında» Azərbaycan Respublikasının 28 iyun 2005-ci il tarixli Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 09 avqust 2005-ci il tarixli fərmanı;
- «Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinin səlahiyyət bölgüsü haqqında» Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli 507 nömrəli fərmanı və s.

Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi sahəsində beynəlxalq xarakterli normativ-hüquqi aktlara Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq Konvensiyalar, ikitərəfli və çoxtərəfli müqavilələr, hökumətlərarası sazişlər aid edilir. Bunlara misal olaraq BMT-nin «Narkotik vasitələr haqqında» 30 mart 1961-ci il tarixli Konvensiyasını, BMT-nin «Psixotrop vasitələr haqqında» 21 fevral 1971-ci il tarixli Konvensiyasını, «Terrorizmin maliyyələşdirilməsi ilə mübarizə haqqında» 09 dekabr 1999-cu il tarixli Beynəlxalq Konvensiyasını, BMT-nin «Transmilli mütəşəkkil cinayətkarlığa qarşı» 2000-ci il tarixli Konvensiyasını, BMT-nin «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsinə qarşı mübarizə haqqında» 1988-ci il tarixli Konvensiyasını göstərmək olar.

Əməliyyat-axtarış tədbirlərini həyata keçirən orqanların qəbul etdikləri normativ-hüquqi aktlara isə həmin orqanların səlahiyyətli subyektləri tərəfindən təsdiq olunmuş əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinin təşkilati və taktiki aspektlərini əhatə edən əmr, təlimat, kollegiya qərarları, göstərişlər və s. aid edilir.

Sual 2.
Vətəndaşların konstitusion hüquqlarını məhdudlaşdırmayan əməliyyat-axtarış tədbirlərinin növləri, məzmunu, obyekt və subyektləri.

Əməliyyat-axtarış tədbirlərinin əməliyyat-axtarış fəaliyyətində mühüm rol oynaması onların hər birinin ayrılıqda mahiyyətinin təhlil edilməsini tələb edir. Bundan irəli gələrək konstitusion hüquqları məhdudlaşdırmayan əməliyyat-axtarış tədbirlərinin hər birinin məzmununun və səciyyəvi xüsusiyyətlərinin təhlil olunması və öyrənilməsi mühüm əhəmiyyət kəsb edir.

Vətəndaşların sorğusu. Bu tədbirin mahiyyəti bir və ya bəzən bir neçə şəxslə söhbət aparmaqla, onlardan malik olduqları əməliyyat marağı kəsb edən məlumatların alınmasından ibarətdir. Söhbət aparılan şəxs cinayət əməli ilə əlaqəli, yaxud da kənar şəxs ola bilər. Əsas məsələ odur ki, həmin şəxslər əməliyyat aparatını maraqlandıran zəruri informasiyaya malik olsunlar. Bu zaman onların yaşı, cinsi mənsubiyyəti əhəmiyyət kəsb etmir.

Söhbət zamanı müxtəlif taktiki üsullardan istifadə oluna bilər. Ancaq hər bir halda şəxsin söhbətdə iştirakı könüllü olmalıdır. Söhbətin nəticələri yazılı formada əməliyyat işçisi tərəfindən sənədləşdirilməlidir. Danışığı fiksə etmək üçün digər texniki vasitələrdən də istifadə edilə bilər.

Sorğu gizli və aşkar formada aparıla bilər. Bu, istər sorğu aparanın, istərsə də sorğu verən şəxsin təşəbbüsü ilə ola bilər. Belə təşəbbüsü sorğu verən göstərərsə, onda əməliyyatçı bunun səbəbini aydınlaşdırmağa çalışmalıdır. Sorğunun məxfi qalması onu həyata keçirən şəxsin təşəbbüsü olduqda, onda o, qarşı tərəfə əvvəlcədən xəbərdarlıq etməlidir. Taktiki cəhətdən sorğunun əsas məqsədi şifrələnə və ya onu keçirən şəxsin şəxsiyyəti gizlədilə bilər. Sorğunun müvəffəqiyyətlə aparılması ilk növbədə ona diqqətlə hazırlaşmaqdan, söhbət aparılacaq şəxs haqqında ətraflı məlumatların toplanmasından və taktiki üsulların peşəkarlıqla istifadə edilməsindən asılıdır.

Sorğu zamanı vətəndaş tərəfindən onun şəxsiyyətinin gizli qalması təklif olunarsa, onda onun haqqında məlumatlar gizli saxlanılır və təhqiqat, istintaq və məhkəmə baxışı zamanı o şahid qismində dindirilmir.

Sorğu istənilən yerdə, vaxtda, şəraitdə, həm bilavasitə əməliyyat aparatının əməkdaşı tərəfindən, həm də ona könüllü köməklik edən şəxs tərəfindən aparıla bilər.

Sorğunun obyektini, cinayətkarlığa meyilli olan və ya kriminal mühitlə əlaqəli olan, cinayətin hazırlanmasında və ya törədilməsində şübhəli olan, əməliyyat aparatları üçün maraq doğuran məlumata malik şəxslər təşkil edir.

Sorğunu müstəqil əməliyyat-axtarış tədbiri kimi dindirmədən fərqləndirmək lazımdır. Dindirmə prosessual hərəkət oldub, təhqiqat və istintaq aparan şəxsin səlahiyyətinə aiddir. Dindirmədə iştirak edən tərəflər qanunla müəyyən olunmuş hüquq və vəzifələrə malik olur və dindirmə prosessal formada aparılır. İfadə vermək dindirilən şəxsin hüququ yox, vəzifəsidir. O, ifadə verməkdən imtinaya və yalan ifadə verməyə görə məsuliyyət daşıyır. Dindirmənin gedişi protokolda əks olunur və onu hər iki tərəf imzalayır.

Qeyd olunanların nəticəsi olaraq vətəndaşların sorğusuna belə bir anlayış vermək olar: **Vətəndaşların sorğusu** dedikdə, əməliyyat marağı kəsb edən məlumatlara malik şəxslərlə ünsiyyət zamanı həmin məlumatların əldə olunması məqsədilə onlarla kəşfiyyat xarakterli söhbətin aparılması başa düşülür. Vətəndaşların sorğusu tədbirinin

obyektini əməliyyat marağı kəsb edən məlumatlara malik olan şəxslər təşkil edir. Onlar aşağıdakı kimi təsnif olunur:

I Cinayət törətməyə meyilli olan şəxslər:

- əvvəllər məhkum olunmuş şəxslər;
- mövqeyinə və davranışına görə mənfi xarakterizə olunan şəxslər (tüfeyli, avara);
- inzibati hüquqpozma törədənlər və s.

II Cinayətkarlıqla əlaqəsi olan şəxslər:

- cinayəti törətməkdə və ya hazırlamaqda şübhəli olan şəxslər;
- şərti məhkum olunmuş şəxslər və s.

III Cinayətkarlıqla əlaqəsi olmayan şəxslər:

- cinayət törətməkdə şübhəli olan şəxslərin yaxın əlaqələri;
- şahidlər, zərərçəkmiş şəxslər və s.

Bu tədbiri əməliyyat-axtarış fəaliyyətinin bütün subyektləri həyata keçirmək səlahiyyətinə malikdir. Çun ki, «Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinin səlahiyyət bölgüsü haqqında» Azərbaycan Respublikası Prezidentinin fərmanına əsasən bu tədbir tətbiqi məhdudlaşdırılmayan əməliyyat-axtarış tədbirlərinə aid edilmişdir.

Vətəndaşların sorğusu əməliyyat-axtarış tədbirinin tətbiqinin əhəmiyyətini aşağıdakılar təşkil edir:

- Hazırlanan və törədilən cinayətlərin qarşısının alınması təmin olunur;
- Törədilmiş cinayətlərin açılması təmin edilir;
- Cinayətkar şəxslər barədə məlumatı olan şəxslər müəyyən edilir;
- Cinayətlərin törədilməsinin səbəb və şəraiti öyrənilir və təhlil olunur;
- Hazırlanan və latent cinayətlər barədə məlumat əldə olunur;
-ƏAF subyektlərinə köməklik göstərən şəxsləri müəyyən etməyə imkan yaradır;
- Cinayətkarların və itkin düşmüş şəxslərin yeri müəyyən edilir;
-Digər əməliyyat-axtarış tədbirləri istiqamətləndirilir, əməliyyat xarakterli məlumatlar yoxlanılır.

Soraqlaşma - əməliyyat-axtarış fəaliyyəti qarşısında duran vəzifələri həll etmək üçün əməliyyat marağı kəsb edən şəxs haqqında, eyni zamanda onun cinayət əməli ilə əlaqəsini yoxlamaq məqsədilə müəssisə, təşkilat və idarələrdən, dövlət və yerli özünüidarə orqanlarından, vətəndaşlardan, yerli və respublika səviyyəli mərkəzi informasiya sistemlərindən məlumatların alınmasıdır.

Soraqlaşmanın predmetinə müxtəlif xarakterli informasiyalar daxil ola bilər. Şübhəsiz ki, bu, ilk növbədə kriminal xarakterli məlumatlardan ibarətdir. Ancaq məlumatlar şəxsin yaşayış yeri, tərcümeyi-halı, təhsili, əlaqələri, gəlir mənbəyi, məşğuliyyəti və s. ilə də əlaqədar ola bilər. Hər bir halda bu məlumatlar əməliyyat aparatı üçün əməliyyat marağı kəsb edən olmalıdır.

Soraqlaşma zamanı hüquq-mühafizə orqanlarının informasiya sistemlərindən və digər idarə və müəssisələrin məlumatlarından istifadə olunur.

Soraqlaşma prosesində gizli xarakterli məlumatların alınmasına hər hansı bir məhdudiyyət qoyulmur. Ancaq qanunla vətəndaşların şəxsi həyatına aid məlumatların toplanmasına xüsusi məhdudiyyət rejimləri qoyulmuşdur. Bunlara misal kimi kommersiya, bank, notariat, həkim, jurnalist sirlərini və s. göstərmək olar. Vətəndaşların razılığı olmadan belə məlumatların verilməsinə məhkəmənin, istintaq və təhqiqat orqanlarının rəsmi tələbi (sorğusu) əsasında onların icraatında olan konkret cinayət işi ilə əlaqədar olaraq icazə verilir.

Hüquq-mühafizə orqanlarının informasiya-axtarış sistemlərində soraqlaşma əməliyyat aparatı tərəfindən təsdiq olunmuş sorğu əsasında aparılır. Başqa idarələrə göndərilən sorğulara tələb olunan məlumatlar, həmçinin soraqlaşma aparmaq üçün hüquqi əsaslar göstərilməklə, qanunvericilik aktlarına istinad edilməlidir. Soraqlaşma tədbiri əməliyyat aparatının əməkdaşı və ya onun tapşırığı əsasında digər şəxs

tərəfindən aparıla bilər. Bu zaman məlumatın alınma səbəbləri, soraqlaşmanı aparan şəxsin şəxsiyyəti gizli saxlanıla bilər. Soraqlaşma tədbirinin nəticələri əməliyyat müvəkkili tərəfindən sənədləşdirilməlidir.

Soraqlaşma əməliyyat-axtarış tədbirini əməliyyat-axtarış fəaliyyətinin bütün subyektləri həyata keçirmək səlahiyyətinə malikdir. Çun ki, «Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinin səlahiyyət bölgüsü haqqında» Azərbaycan Respublikası Prezidentinin fərmanına əsasən bu tədbir də tətbiqi məhdudlaşdırılmayan əməliyyat-axtarış tədbirlərinə aid edilmişdir.

Soraqlaşma əməliyyat-axtarış tədbirinin vəzifələrinə aşağıdakılar aiddir:

- Əməliyyat marağı kəsb edən məlumatların toplanması;
- Əməliyyat xarakterli məlumatların yoxlanılması;
- Cinayətlərin törədilmə səbəb və şəraitinin müəyyən olunması;
- Əməliyyat-axtarış tədbirlərinin və istintaq hərəkətlərinin həyata keçirilməsi üçün zəruri məlumatların toplanması;
- Axtarışda olan şəxslər barədə məlumatların toplanması;
- İstintaqdan yayınan şəxslərin yerinin müəyyən olunması;
- Naməlum meyitlərin şəxsiyyətinin müəyyən olunması;
- Konfidensial əməkdaşlığa seçilmiş şəxslər barədə məlumatların toplanması.

Məhkumların məktublarının yoxlanılması. Bu tədbirdən istifadə etməklə, məhkum edilmiş şəxslərin məktublarından cəzaçəkmə müəssisələrində törədilmiş cinayətlər haqqında məlumatları əldə etmək, yaxud da məhkum edilmiş şəxslərin azadlıqda qalıb hələ də cinayətkar fəaliyyətlərini davam etdirməkdə olan şəxslərlə cinayətkar əlaqələrini açmaq mümkündür.

Adından göründüyü kimi, bu əməliyyat-axtarış tədbiri yalnız müəyyən kateqoriyaya aid olan şəxslərə – məhkumlara tətbiq olunur. Məhkumların məktublarının yoxlanılması Cəzaların İcrası Məcəlləsinin 83.2-ci maddəsində məhkumlar tərəfindən alınan və göndərilən yazışmaların senzurası kimi adlandırılır. Məhkumların məktublarının, onlara göndərilən sovqatların, banderolların və s. göndərişlərin cəzaçəkmə müəssisələri şəraitində yoxlanılmasını bir qayda olaraq əməliyyat-axtarış tədbirlərinə aid etmirlər və onların həyata keçirilməsi müvafiq olaraq cəza-icra qanunvericiliyi ilə tənzimlənir, eyni zamanda həmin qanunvericiliyə əsasən cəzaçəkmənin şərtlərinə aid edilir. Lakin nəzərə almaq lazımdır ki, məhkumların məktublarının yoxlanılması «ƏAF haqqında» Qanunun 10-cu maddəsində qeyd olunmuş altıncı əməliyyat-axtarış tədbiridir. Həmin tədbiri «Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinin səlahiyyət bölgüsü haqqında» Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli fərmanına əsasən Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi həyata keçirirlər. Belə nəticəyə gəlmək olar ki, zərurət yarandıqda, konfidensiallıq şəraitində konkret əməliyyat-taktiki vəzifələrin həlli üçün bu tədbir tətbiq edilərsə, belə hallarda əməliyyat-axtarış fəaliyyətinin tədbiri kimi sayıla bilər. Bu tədbir məhkumların adına daxil olan və onlar tərəfindən göndərilən məktubları əhatə edir.

Nəqliyyat vasitələrinə baxış keçirmə əməliyyat-axtarış tədbiri nəqliyyat vasitələrində cinayətin törədilməsində istifadə edilmiş silahların, alət və vasitələrin, cinayətkar yolla əldə edilmiş predmetlərin, əşyaların, qiymətli əşyaların və cinayətin sair izlərinin aşkar edilib götürülməsi məqsədilə həyata keçirilir. Bu əməliyyat-axtarış tədbirinin keçirilməsində mütəxəssisin iştirakı və zəruri texniki vasitələrdən istifadə edilməsi məqsədəuyğundur. Çünki dövriyyəsi qadağan olunmuş malların, predmetlərin qaçaqmalçılığı zamanı nəqliyyat vasitələrində düzəldilmiş xüsusi gizlədicilərdən istifadə edilir. Əməliyyat şəraitindən asılı olaraq bu əməliyyat-axtarış tədbiri aşkar və qeyri-aşkar formada həyata keçirilə bilər.

Nəqliyyat vasitələrinə aşkar formada baxışın keçirilməsinə dövlət yol polisi əməkdaşları cəlb edilə bilərlər. Konkret hallardan asılı olaraq tədbirin əsl məqsədi

nəqliyyat vasitəsinin sahibinə açıqlanmaya, tədbirdə əməliyyat işçisinin iştirakı əfsanələşdirilə bilər. Gizli baxış isə əməliyyat-axtarış fəaliyyətinin qüvvə və vasitələri hesabına həyata keçirilir.

Binaların, o cümlədən yaşayış yerlərinin, hasarlanmış tikinti obyektlərinin, qurğuların, torpaq sahələrinin, nəqliyyat vasitələrinin və digər obyektlərin müşahidəsi. Bu əməliyyat-axtarış tədbiri qanunvericiliyə müvafiq olaraq cinayətin hazırlanmasının cinayətkar fəaliyyəti və onu həyata keçirən şəxslərin, cinayət törətməkdə şübhəli bilinən şəxslərin və onların əlaqələrinin, aşkar edilməsi, axtarışda olan şəxslərin yerinin müəyyən olunması və cinayətlərin qarşısının alınması və açılması üçün əhəmiyyət kəsb edən məlumatların əldə edilməsi məqsədilə həyata keçirilir.

Müşahidə fiziki yolla (vizual), texniki və elektron müşahidə vasitələrinin köməyi ilə həyata keçirilə bilər. Fiziki müşahidə vizual müşahidəyə əsaslanaraq, əməliyyat aparatlarının əməkdaşları tərəfindən və ya onların tapşırığı ilə digər xidmətlərin əməkdaşları, polis orqanları ilə əməkdaşlıq edən şəxslərin iştirakı ilə həyata keçirilə bilər. Müşahidə prosesində gizli foto və videoçəkilişi tətbiq etmək olar. Eyni zamanda, bu tədbir ixtisaslaşmış və yaxud xüsusi əməliyyat-texniki xidmətlər tərəfindən də həyata keçirilir. Müşahidənin həyata keçirilməsinin əsas forması gizlidir, lakin müşahidə açıq formada da həyata keçirilə bilər. Müşahidə açıq formada həyata keçirilərkən, onun məqsədi kənar şəxslərdən pərdələnir. Təcrübədə müşahidə aparılma müddətinə görə qısamüddətli, uzunmüddətli və yaxud davamedən formada təsnif edilir.

Azərbaycan Respublikasının «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanununun 10-cu maddəsinin III hissəsinə və Cinayət-prosessual məcəllsinin 445-ci maddəsinə əsasən texniki vasitələrdən istifadə etməklə və ya səs yazan, video, foto, kino və digər çəkiliş cihazlarının quraşdırılması yolu ilə mənzilin müşahidə edilməsi məhkəmənin qərarı əsasında həyata keçirilir ki, bu barədə mühazirənin birinci sualında məlumat verilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli «Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində ƏAF subyektlərinin səlahiyyət bölgüsü haqqında» Fərmanının 1-ci bəndinə əsasən, binaların, o cümlədən yaşayış yerlərinin, hasarlanmış tikinti obyektlərinin, qurğuların, torpaq sahələrinin, nəqliyyat vasitələrinin və digər obyektlərin müşahidəsini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının dövlət sərhədlərinin mühafizəsi ilə əlaqədar Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti həyata keçirirlər.İqtisadi sahədə mütəşəkkil cinayətkarlığa qarşı mübarizə ilə əlaqədar öz səlahiyyətləri çərçivəsində bu əməliyyat-axtarış tədbirini həmçinin Azərbaycan Respublikasının Vergilər Nazirliyi həyata keçirə bilər.

Şəxsiyyətin eyniləşdirilməsi. Əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi zamanı tez-tez əməliyyat marağı kəsb edən şəxslərin tanınmasına ehtiyac yaranır. Belə şəraitdə şəxsiyyətinin eyniləşdirilməsi əməliyyat-axtarış tədbirlərindən istifadə edilir. Şəxsiyyətin eyniləşdirilməsi şəxsin fərdi antropoloji (sifət quruluşu və cizgiləri, bədən quruluşu, boyu və s.) və funksional əlamətləri (hərəkəti, jestləri, nitqi və s.) barədə zərərçəkmiş və cinayətin şahidi olmuş şəxsin şüurunda və digər informasiya mənbələrində (fotoşəkillərdə, fotorobotlarda, kino və videolentlərdə və s.) əks olunmuş məlumatlardan istifadə olunur. Bu tədbir hər hansı bir şəxsiyyətin eyniləşdirilib müəyyən edilməsi, onun fərdiləşdirilməsi ilə bağlı olan dinamik əlamətlərinə uyğun şəxsin kifayət qədər optimallığı ilə tanınmasına imkan verir.

Qeyd olunanlardan irəli gələrək, bu tədbirlərə aşağıdakı kimi anlayış vermək olar. **Şəxsiyyətin eyniləşdirilməsi** – cinayətkar fəaliyyətlə məşğul olan, cinayət törətməkdə şübhəli bilinən, yaxud axtarışda olan şəxslərin müəyyən edilməsi məqsədilə onların xarici görünüşünə, əlamətlərinə və digər fərdi xüsusiyyətlərinə görə əməliyyat yolu ilə (qeyri-prosessual qaydada) tanınmasıdır.

Şəxsiyyətin eyniləşdirilməsinin iki növü mövcuddur: bilavasitə və dolayı eyniləşdirmə.

Bilavasitə şəxsiyyətin eyniləşdirilməsi şəxsi tanımaq qabiliyyətinə əsaslanır və iki tərəfin, yəni tanıyan və tanınan şəxsin iştirakı ilə həyata keçirilir.

Dolayı eyniləşdirmə isə şifahi təsvir və çəkilmiş portreti fotoşəkil, fotorobot və s. ilə şəxsin tanınmasını nəzərdə tutur.

Şəxsiyyətin eyniləşdirilməsi axtarış eyniləşdirilməsinin bir növüdür. Belə ki, axtarış zamanı meyitlər, bədən üzvləri və s. eyniləşdirmənin obyekti ola bilər. Eyniləşdirmə müxtəlif texniki vasitələrdən və taktiki üsullardan istifadə edilməklə həyata keçirilir. Ən geniş yayılmış üsullar daktiloskopik və s. kriminalistik uçot sistemləri üzrə yoxlama, foto, şəkilə görə tanıma, fotorobota görə tanıma, «isti izlərlə» şahidlərin, zərərçəkmişləri iştirakı ilə təqib etmə və s. Təcrübədə eyni zamanda xidməti axtarış itlərinin köməyi ilə iyə görə eyniləşdirmə aparılır.

Bu əməliyyat-axtarış tədbiri bilavasitə əməliyyat aparatı əməkdaşının özü, onun göstərişi əsasında mütəxəssis-kinoloq, inspektor-kriminalist və ƏAF-a kömək edən digər şəxslər tərəfindən aparılır.

Şəxsiyyətin eyniləşdirilməsi tədbirini, istintaq hərəkəti olan «şəxsi tanınma»dan fərqləndirmək lazımdır. Onlar bir-birindən iştirak edən subyektlərin dairəsinə, aparılma əsaslarına, formasına və nəticələrinə görə fərqlənirlər. Məsələn, prosessual qaydada tanınma CPM-in 239-cu maddəsinə uyğun olaraq aşkar formada, şəxsiyyətin eyniləşdirilməsi isə gizli formada həyata keçirilir. Yəni, eyniləşdirilən şəxs keçirilən tədbir barədə məlumatsız olur.

Şəxsiyyətin eyniləşdirilməsi əməliyyat-axtarış tədbirini əməliyyat-axtarış fəaliyyətinin bütün subyektləri həyata keçirmək səlahiyyətinə malikdir.Çun ki, «Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinin səlahiyyət bölgüsü haqqında» Azərbaycan Respublikası Prezidentinin fərmanına əsasən bu tədbir də tətbiqi məhdudlaşdırılmayan əməliyyat-axtarış tədbirlərinə aid edilmişdir.

Nəzarət qaydasında mal alınması. Bu tədbir istehlakçıların aldadılması, dövriyyəsi qadağan olunmuş və ya məhdudlaşdırılmış malların, əşya və predmetlərin qeyri-qanuni dövriyyəsi ilə əlaqədar cinayətkar fəaliyyətlə məşğul olan şəxslərin qanunazidd əməllərinin müəyyən edilməsi məqsədilə onlarla aparılan uydurma alqı-satqıdır. Bu tədbirdən əvvəllər bir qayda olaraq iqtisadi sahədə törədilən cinayətlərə qarşı mübarizədə istifadə olunurdu. Mahiyyəti ondan ibarət idi ki, əməliyyat aparatının əməkdaşı, yaxud onunla əməkdaşlıq edən şəxs istehlak məqsədi olmadan cinayət törətməkdə şübhəli olan şəxsdən ödənişli qaydada mal alır və bu vasitə ilə yoxlanılan şəxsin ticarət, maliyyə, təsərrüfat və sahibkarlıq fəaliyyəti qaydalarına riayət edib-etməməsi, istehlakçıları aldadıb-aldatmaması müəyyən edilirdi. Lakin hazırki dövrdə qeyd olunanlardan əlavə, bu tədbirdən dövriyyəsi qadağan olunmuş və məhdudlaşdırılmış malların, predmetlərin qeyri-qauni dövriyyəsi ilə məşğul olan şəxslərin müəyyən olunmasında istifadə olunur.

Buradan belə məlum olur ki, nəzarət qaydasında mal alınmasının predmeti istər dövriyyədə olan, istərsə də dövriyyədən çıxarılmış, yaxud dövriyyəsi məhdudlaşdırılmış predmet və əşya ola bilər. Məsələn, silah, döyüş sursatı, narkotik vasitələr, psixotrop maddələr və s.

Azərbaycan Respublikasının 18 iyun 2005-ci il tarixli «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» Qanununda bu tədbir xüsusi olaraq öz əksini tapmışdır (maddə 31).

Tədbirin məqsədini aşağıdakılar təşkil edir:

- İstehlakçıların aldadılması ilə əlaqədar cinayətlərin qarşısının alınması;
- İqtisadi sahədə baş verən cinayətlərin qarşısının alınması və açılması;

- Əşya və predmetlərin qanunsuz dövriyyəsi ilə əlaqəli cinayətlərin qarşısının alınması və açılması;
- Cinayət törətməkdə şübhəli olan şəxslərin cinayətkar əməllərinin aşkar edilməsi və sənədləşdirilməsi;
- Cinayət işləri üzrə sübut ola biləcək əşya və predmetlərin aşkar edilməsi.

Nəzarət qaydasında mal alınması bir halda aşkar formada, ikinci halda gizli formada həyata keçirilə bilər. Birinci halda, alqı-satqıdan sonra dərhal satıcıya məqsəd çatdırılır, alınan mal çəkilir və ona baxış keçirilir və nəticə aktla rəsmiləşdirilir. Bu, ən çox istehlakçıların aldadılmasının müəyyən edilməsi zamanı tətbiq olunur.

İkinci halda isə, tədbir gizli formada həyata keçirilir. Belə ki, alınan malın yoxlanılması malı satan şəxsin iştirakı olmadan həyata keçirilir. Bu, əsasən dövriyyəsi qadağan olunmuş və məhdudlaşdırılmış əşya və predmetlərlə bağlı cinayətləri törətməkdə şübhəli olan şəxslərin müəyyən olunmasında istifadə olunur.

Nəzarət qaydasında mal alınması əməliyyat-axtarış tədbirini əməliyyat-axtarış fəaliyyətinin bütün subyektləri həyata keçirmək səlahiyyətinə malikdir. Lakin «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövrüyyəsi haqqında» Azərbaycan Respublikası Qanununa və həmin Qanunun icrasının təmin edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin fərmanına əsasən narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının nəzarət qaydasında alınmasını Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti, Dövlət Sərhəd Xidməti və Dövlət Gömrük Komitəsi həyata keçirmək səlahiyyətinə malikdir.

Əşya və sənədlərin tədqiqi. Bu əməliyyat-axtarış tədbiri əməliyyat-axtarış fəaliyyətinin qarşısında duran vəzifələrin həll edilməsi üçün üzərində cinayətin izləri qalmış, cinayətin törədilməsində vasitə kimi istifadə edilmiş əşya və sənədlərin müayinə edilməsindən ibarətdir.Tədqiq zamanı aşaöıdakı istiqamətlərdə məlumatlar əldə oluna bilər:
- Əşya və predmetlərin eyniləşdirilməsi üçün məlumatlar;
- Sənədlərin məzmunu və onu icra etmiş şəxslər haqqında məlumatlar;
- Bioloji obyektlər və onların kimə məxsus olması haqqında məlumatlar (qan, tük və s.).

Əşya və sənədlərin tədqiqi əməliyyat aparatlarının əməkdaşları tərəfindən, ya da onun göstərişi ilə hüquq-mühafizə orqanlarının kriminalistika və digər bölmələri tərəfindən məxfi qaydada aparıla bilər. Əşya və sənədlərin tədqiqi adi kriminalistik texniki vasitələrdən istifadə etməklə mümkün olduqda, əməliyyat aparatının əməkdaşı tərəfindən həyata keçirilir. Tədbirin aparılması üçün mürəkkəb texniki vasitələr, laboratoriya şəraiti tələb olunduqda isə o, kriminalistika bölmələrinin sərəncamına göndərilir və tədqiqi mütəxəssis həyata keçirir.

Əşya və sənədlərin ilkin tədqiqi sonradan onların ekspertizanın obyekti olmasına maneçilik törətmir. Sadəcə ekspentizanın aparılması ilkin tədqiqat aparmış mütəxəssisə həvalə edilə bilməz.

Əşya və sənədlərin tədqiqi əməliyyat-axtarış tədbirini əməliyyat-axtarış fəaliyyətinin bütün subyektləri həyata keçirmək səlahiyyətinə malikdir.Çun ki, «Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinin səlahiyyət bölgüsü haqqında» Azərbaycan Respublikası Prezidentinin fərmanına əsasən bu tədbir də tətbiqi məhdudlaşdırılmayan əməliyyat-axtarış tədbirlərinə aid edilmişdir.

Müqayisəli tədqiq üçün nümunələrin toplanması. Qeyd olunan əməliyyat-axtarış tədbiri müqayisəli tədqiq (eyniləşdirmə) aparmaq məqsədilə üzərində cinayətin izləri qalmış, cinayətkar qəsdin obyekti olmuş, yaxud da ictimai təhlükəli əmələin qarşısını almaq, onunla əlaqəli olan şəxsləri müəyyən etmək üçün vasitə ola biləcək predmetlərin aşkar edilməsindən və götürülməsindən ibarətdir. Buna misal olaraq dövriyyəsi qadağan olunmuş və məhdudlaşdırılmış predmetlərin ayrı-ayrı nümunələrinin, xətt nümunələrinin, əl-barmaq izlərinin və s. əldə edilməsini misal göstərmək olar.

Tədqiqat nümunələri tamın hissələri olub, onun əlamətlərini, xüsusiyyətlərini özündə əks etdirir və həmin əlamətlərə görə onu eyniləşdirmək mümkün olur. Nümunələr iki qrupa bölünür. Birinci qrupa bilavasitə öz xüsusiyyətlərini əks etdirən nümunələr (məsələn, qan, tüpürcək, narkotik vasitə, qiymətli əşyaların hissəcikləri və s.) daxildir. İkinci qrupa isə başqa predmetin xüsusiyyətlərini əks etdirən nümunələr aiddir (daktilokartaya köçürülmüş papilyar naxış izləri).

Mənşəyinə görə tədqiqat nümunələri sərbəst və eksperimental nümunələrə bölünür. Sərbəst nümunələr əməliyyat-axtarış tədbirləri ilə əlaqəli olmayaraq meydana gələn nümunələrdir (ƏAT-nin obyekti olan şəxsin əvvəllər yazdığı məktub) eksperimental nümunələr isə əməliyyat-axtarış fəaliyyəti prosesində bilavasitə əldə edilən (toplanılan) nümunələrdir (məsələn, hadisə yerindən götürülən güllə və gilizlər).

Bu əməliyyat-axtarış tədbiri ilə cinayət prosesində tətbiq olunan «Tədqiqat üçün nümunələrin götürülməsi» (CPM, mad. 273) istintaq hərəkəti arasında oxşarlıq olduğunu qeyd etmək olar. Lakin, əgər cinayət prosesində nümunələrin götürülməsi zamanı proses iştirakçıları bununla əlaqədar müvafiq qərarla tanış edilirsə və ümumiyyətlə, bu istintaq hərəkətinin keçirilməsi barədə məlumatlı olursa, əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi zamanı bu baş vermir. Məsələn, cinayət prosesində şəxsdən tədqiqat üçün nümunələrin götürülməsi məqsədilə ona müstəntiq tərəfindən çağırış vərəqəsi göndərilir və ya proses onun olduğu yerdə, onun müdafiəçisinin iştirakı ilə həyata keçirilir. Əməliyyat-axtarış fəaliyyətində isə əməliyyat işçisi şəxsə aid nümunələri əməliyyat yolu ilə əldə etməlidir. Məsələn, şəxsin qan nümunəsini əldə etmək üçün onun tibbi qeydiyatda olduğu müalicə müəssisəsinin imkanlarından istifadə edilə bilər. Bu əməliyyat-axtarış tədbiri əsasən şəxsin məlumatı olmadan keçirilir.

Müqayisəli tədqiq üçün nümunələrin toplanması əməliyyat-axtarış tədbirini əməliyyat-axtarış fəaliyyətinin bütün subyektləri həyata keçirmək səlahiyyətinə malikdir. Çun ki, «Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinin səlahiyyət bölgüsü haqqında» Azərbaycan Respublikası Prezidentinin fərmanına əsasən bu tədbir də tətbiqi məhdudlaşdırılmayan əməliyyat-axtarış tədbirlərinə aid edilmişdir.

Nəzarətli göndəriş. Bu tədbir cinayətkar fəaliyyət haqqında məlumatların əldə edilməsi məqsədilə sərbəst dövriyyəsi qadağan olunmuş və ya məhdudlaşdırılmış, həmçinin cinayətkar qəsdlərin obyektləri və alətləri olan predmet, əşya və məhsulların göndərilməsi, yerinin dəyişdirilməsi, üzərində nəzarətin təyin edilməsi kimi başa düşülür. Mahiyyəti ondan ibarətdir ki, həmin göndərilmə və yerinin dəyişdirilməsi əməliyyat-axtarış orqanının gizli nəzarəti altında baş verir və bu vasitə ilə cinayətlə əlaqəsi olan bütün şəxslər, qurumlar aşkar edilir. Bu tədbirin beynəlxalq-hüquqi əsasını «Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə mübarizə haqqında» 1988-ci il tarixli BMT Konvensiyası təşkil edir. Həmin konvensiyada nəzarətli göndəriş narkotiklərlə mübarizədə bir metod kimi təsbit olunmuş, bizim milli qanunvericiliyimizdə – «ƏAF haqqında» Qanunda tədbir kimi müəyyən olunmuşdur. Qanunda nəzarətli göndərişin predmetinə daxil olan əşyaların siyahısı verilməsə də, təcrübəyə görə onun predmetinə aid olan obyektləri aşağıdakı qruplara bölmək olar:

1. cinayətkar yolla əldə olunmuş predmetlər, cinayətin törədilmə alət və vasitələri;
2. sərbəst dövriyyəsi qadağan olunmuş və ya məhdudlaşdırılmış predmetlər. Bunlara odlu silahı, hərbi sursatı, narkotik vasitələri, psixotrop maddələri, mədəniyyət nümunələrini, qiymətli metalları, daşları və valyutanı aid etmək olar.

Nəzarətli göndəriş əməliyyat-axtarış tədbirləri aşağıdakı əsasara görə təsnif olunur və növlərə bölünür:

I Həyata keçirilmə yerinə və marşrutun əhatə dairəsinə görə növləri:

- daxili - yalnız Azərbaycan Respublikasının ərazisində keçirilir;
- xarici – beynəlxalq müqavilə və sazişlərlə müəyyən edilmiş qaydada xarici dövlətin ərazisində keçirilir;

- tranzit – xarici dövlətlərin hüquq-mühafizə orqanlarının və beynəlxalq təşkilatların təşəbbüsü ilə Azərbaycan Respublikasının ərazisindən keçməklə həyata keçirilir.

II Həyata keçirilmə formasına görə növləri:
- yük daşımalarına nəzarət;
- poçt göndərişlərinə nəzarət.

III Taktiki üsullarına görə növləri:
- sadə (adi, aşkar);
- pərdələnmiş (şifrələnmiş).

Nəzarət göndəriş əməliyyat-axtarış tədbirini əməliyyat-axtarış fəaliyyətinin bütün subyektləri həyata keçirmək səlahiyyətinə malikdir. Lakin «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövrüyyəsi haqqında» Azərbaycan Respublikası Qanununa və həmin Qanunun icrasının təmin edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin fərmanına əsasən narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının nəzarətli göndərişini Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti, Dövlət Sərhəd Xidməti və Dövlət Gömrük Komitəsi həyata keçirmək səlahiyyətinə malikdir.

Cinayətkar qruplara və ya kriminogen obyektlərə daxil edilmə əməliyyat-axtarış tədbiri əməliyyat marağı kəsb edən obyektə əməliyyat aparatı əməkdaşının və ona könüllü kömək göstərən, əməkdaşlıq etməyə razılıq verən şəxslərin gizli yolla daxil edilməsini nəzərdə tutur. Bununla kriminogen qrupun daxilində əməliyyat aparatına gizli xidmət edən informasiya mənbəyi yaradılmış olur. Mahiyyəti ondan ibarətdir ki, bu tədbir cinayətin əlamətlərini, cinayətdə iştirak edən şəxslərin əhatəsini, maddi sübutların olduğu yeri və eyni zamanda digər bağlı qalmış cinayətlərin üstünün açılması məqsədilə əməliyyat aparatı əməkdaşları tərəfindən əməliyyat kombinasiyası qurmaqla həyata keçirilir.

«ƏAF haqqında» Qanunun 10-cu maddəsinin VII hissəsinə əsasən, cinayətkar qruplara və ya kriminogen obyektlərə daxil etmə tədbirinin tətbiqinə yalnız mütəşəkkil cinayətkar qurumlar tərəfindən hazırlanan və ya törədilən ağır cinayətlərin, habelə xüsusi təhlükəli dövləti cinayətlərin açılması və onları hazırlayan, törədən və ya törətmiş şəxslərin müəyyən edilməsi ilə əlaqədar yol verilir. Bu tədbirin həyata keçirilməsi üçün xüsusi şərtin müəyyən olunması həmin tədbirin xarakterindən, son dərəcə təhlükəli və çətin bir tədbir olmasından irəli gəlir. Bu tədbir yalnız gizli formada həyata keçirilir və konspirasiya qaydalarına ciddi şəkildə riayət olunmalıdır.

Bu əməliyyat-axtarış tədbirini əməliyyat-axtarış fəaliyyətinin bütün subyektləri həyata keçirmək səlahiyyətinə malikdir. Çun ki, «Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinin səlahiyyət bölgüsü haqqında» Azərbaycan Respublikası Prezidentinin fərmanına əsasən bu tədbir də tətbiqi məhdudlaşdırılmayan əməliyyat-axtarış tədbirlərinə aid edilmişdir.

Hüquqi şəxsin yaradılması. Bu tədbirin mahiyyətini konspirasiya məqsədilə idarə, müəssisə və ya təşkilat yaradılmasından ibarətdir. Hüquqi şəxs əməliyyat-axtarış fəaliyyəti subyektlərinin müvəkkil edilmiş şəxslər tərəfindən təsis edilə bilər. Bu zaman həmin şəxslərin şəxsiyyətini, eləcə də hüquqi şəxsin fəaliyyətini təşkil etmək üçün istifadə olunan əməliyyat-axtarış fəaliyyəti subyektinin bölmə, təşkilat, bina və nəqliyyat vasitələrinin mənsubiyyətini pərdələndirən sənədlərdən istifadə edilir. Məsələn, iqtisadi sahədə mütəşəkkil cinayətkarlığın qarşısının alınması və açılması məqsədilə əməliyyat aparatı tərəfindən yalançı iqtisadi, biznes fəaliyyəti ilə məşğul olan müəssisə yaradılır, cinayətkar qurumlarla əlaqəyə görə və s. zəruri informasiyalar toplanır və onların qeyri-qanuni əmelləri ifşa olunur.

«ƏAF haqqında» Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin VII hissəsinə əsasən, «hüquqi şəxsin yaradılması» əməliyyat-axtarış tədbirinin tətbiqinə yalnız mütəşəkkil cinayətkar qruplar tərəfindən hazırlanan və ya törədilən ağır cinayətlərin, habelə xüsusi təhlükəli dövləti cinayətlərin qarşısının alınması, həmin

cinayətlərin açılması və onları hazırlayan, törədən və ya törətmiş şəxslərin müəyyən edilməsi ilə əlaqədar yol verilir

Azərbaycan Respublikası Prezidentinin «Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinin səlahiyyət bölgüsü haqqında» Fərmanının 2-ci bəndinə əsasən, əməliyyat-axtarış fəaliyyəti prosesində hüquqi şəxsin yaradılması Azərbaycan Respublikasının Daxili İşlər, Vergilər nazirliklərinə və Dövlət Təhlükəsizliyi Xidmətinə həvalə edilir.

Əməliyyat eksperimenti, yəni cinayətkar fəaliyyəti təqlid edən davranış modelinin tətbiqi. Cinayətlərin törədilmə şəraitinin və xüsusiyyətlərinin yenidən canlandırılmasını əks etdirən təcrübi hərəkət olub, idarə edilən və nəzarət olunan süni şərait yaradılması, eləcə də bu şəraitdə obyektin davranışının öyrənilməsi üzrə hərəkətlər məcmusunu özündə ehtiva edən əməliyyat-axtarış tədbiridir. Bir qayda olaraq, əməliyyat ekspernimentinin obyekti öyrənilən şəxs olur. Burada şərait dedikdə, öyrənilən şəxsin davranışına təsir edə bilən hallar məcmusu başa düşülür.

Əməliyyat eksperimenti tədbirini istintaq eksperimentindən fərqləndirmək lazımdır. İstintaq eksperimenti cinayət işi başlandıqdan sonra həyata keçirilir və onun keçirilməsində hal şahidləri, müdafiəçi, şübhəli şəxs, təqsirlənidirilən şəxs və d. iştirak edirlər. Əməliyyat eksperimenti isə əməliyyat-axtarış tədbiri kimi bunların iştirakı olmadan həyata keçirilir. Bəzən cinayət işinin başlanmasının özü əməliyyat eksperimentinin nəticələrindən asılı olur. Qeyd etmək lazımdır ki, əməliyyat eksperimentinin aparılması sonradan həmin halla bağlı istintaq eksperimentinin həyata keçirilməsini istisna etmir.

Vəzitfəsindən asılı olaraq əməliyyat eksperimentini aşağıdakı növlərə bölmək olar:

1. konkret faktın, hadisənin, prosesin müəyyən şəraitdə mövcud ola bilməsini müəyyən etmək üçün;
2. müəyyən şəraitdə nəyisə eşitməyin, görməyin mümkünlüyünü müəyyən etmək üçün;
3. konkret şəraitdə konkret hərəkəti etməyin mümkünlüyünü təyin etmək üçün;
4. cinayət hadisəsinin mexanizmini müəyyən etmək üçün.

Mövzunun bu sualında konstitusion hüquqları məhdudlaşdırmayan əməliyyat-axtarış tədbirlərinin anlayışı, təsnifatı və həyata keçirilməsinin hüquqi əsasları barədə məüəyyən məlumatlar verdik. Həmin tədbirlərin həyata keçirilməsinin təşkili və taktikası ilə əlaqədar məsələlər «DİO-nun əməliyyat-axtarış fəaliyyəti» fənni tədris olunarkən təhlil olunaraq öyrəniləcəkdir.

Sual 3.
Vətəndaşların konstitusion hüquqlarını məhdudlaşdırmayan əməliyyat-axtarış tədbirlərinin tətbiq olunmasının ümumi qaydası və şərtləri

Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinin ümumi qaydası və şərtləri əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericiliyində öz əksini tapmışdır. Bu qayda və şərtlər sistemli şəkildə «ƏAF haqqında» Qanunun 13 və 14-cü maddələrində təsbit olunmuşdur. Lakin bununla yanaşı, belə qayda və şərtlərə qanunun digər normalarında da rast gəlmək mümkündür.

Biz əməliyyat-axtarış fəaliyyətinin prinsiplərindən danışarkən, qeyd etmişdik ki, həmin prinsiplər «ƏAF haqqında» Qanunun bütün normaları üçün fundamental xarakter daşıyır, onların başlanğıc nöqtəsidir. Bu nöqteyi-nəzərdən, əməliyyat-axtarış tədbirlərindən danışarkən, ilk növbədə «ƏAF haqqında» Qanunun II hissəsində deyilir ki, «Azərbaycan Respublikasının qanunvericiliyində başqa hal nəzərdə tutulmamışdırsa, hər hansı şəxsin vətəndaşlığı, milliyyəti, cinsi, yaşayış yeri, sosial və əmlak vəziyyəti, qulluq mövqeyi, ictimai birliklərə mənsubiyyəti, dinə münasibəti və siyasi baxışları əməliyyat-axtarış tədbirlərinin keçirilməsinə mane ola bilməz».

Əməliyyat-axtarış tədbirlərini tətbiqi şərtlərinin mahiyyətinə görə ümumi və məhdud xarakterli şərtlərə bölmək olar.

Ümumi xarakterli şərtlər konstitusion prinsiplərlə əlaqəi olub, «ƏAF haqqında» Qanunun bütün normaları üçün qüvvədə olur. Məhdud xarakterli şərtlər isə ayrı-ayrı əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi ilə bağlı nəzərdə tutulmuşdur və digərləri üçün mahiyyət etibarı ilə əhəmiyyət kəsb etmir.

«ƏAF haqqında» Qanunun əməliyyat-axtarış tədbirlərinin tətbiqi şərtlərindən birini əks etdirən 3-cü maddəsinin II hissəsi bilavasitə Azərbaycan Respublikası Konstitusiyasında təsbit olunmuş insanların qanun qarşısında bərabərliyi prinsipi ilə əlaqəlidir. Ona görə də həmin şərt mahiyyət etibarilə əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinin ümumi xarakterli şərtlərindən biri və birincisi hesab olunur.

Azərbaycan Respublikasının Konstitusiyası sosial, irqi, mlli, dini və s. məsuliyyətindən asılı olmayaraq, hamının qanun qarşısında bərabərliyini nəzərdə tutsa da, lakin bəzi istisnalar nəzərdə tutulmuşdur. Məsələn, Azərbaycan Respublikası Konstitusiyasına görə Azərbaycan Respublikasının Prezidenti, Milli Məclisin üzüvləri, hakimlər toxunulmazlıq hüququna malikdirlər.

«Azərbaycan Respublikası Milli Məclis deputatının statusu haqqında» Qaununun (17 may 1995-ci il) 12-ci maddəsinə əsasən, deputatın toxunulmazlığı onun evinin, məqzilinin, əşyalarının, şəxsi və xidməti nəqliyyat vasitələrinin, ona məxsus sənədlərin, yazışmaların toxunulmazlığını da əhatə edir. Deməli, bu kateqoriyadan olan şəxslərə münasibətdə əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi üçün (məsələn, nəqliyyat vasitələrinə baxış) xüsusi icazənin olması tələb olunur. Bununla əlaqədar, Azərbaycan Respublikası Konstitusiyasının 90-cı maddəsində qeyd olunur ki, «Azərbaycan Respublikası Milli Məclisinin deputatının toxunulmazlığına yalnız Azərbaycan Respublikası Baş Prokurorunun təqdimatına əsasən, Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə xitam verilə bilər». Deməli, cinayət-mühakimə icraatının ilkin mərhələsində həbs, axtarış, o cümlədən deputatın toxunulmazlığını məhdudlaşdıran bütün əməliyyat-axtarış tədbirlərinin aparılması yalnız Azərbaycan Respublikası Baş Prokurorunun təqdimatı əsasında Milli Məclisin razılığı ilə mümkündür.

Diplomatik toxunulmazlığa malik şəxslərə münasibətdə də əməliyyat-axtarış tədbirlərinin keçirilməsi məhdudlaşdırılmışdır. Xarici ölkələrin diplomatik nümayəndəsi

ilə bağlı əməliyyat-axtarış tədbirlərinin keçirilməsi məsələsi beynəlxalq hüquq normalarına uyğun həll olunur.

«ƏAF haqqında» Qanunun 13-cü maddəsində qeyd olunan şərtlərin bəziləri məhdud xarakterli şərtlərdir ki, həmin şərtlər konstitusion hüquqları məhdudlaşdıran tədbirlərə şamil edilir (maddə 13, I və II hissə). Bu şərtlər növbəti mövzuda təhlil olunacaqdır. Lakin, belə məhdud xarakterli şərtlərlə yanaşı, ümumi xarakterli şərtlər də həmin maddədə öz əksini tapmışdır. Belə ki, «ƏAF haqqında» Qanunun 13-cü maddəsinin III hissəsinə əsasən, «şəxs tərəfindən cinayətin törədilməsi və ya hazırlanması barədə kifayət qədər əsas olduqda, onun özü və əlaqələri haqqında məlumat almaq məqsədilə tətbiq edilən əməliyyat-axtarış tədbirlərində insanın səhhətinə və ətraf mühitə ziyan vuran texniki vasitə, psixotrop, kimyəvi və digər maddələrdən istifadə edilməsi qadağandır. Bu maddədə əks olunmuş müddəa əməliyyat-axtarış fəaliyyətinin öz təyinatından irəli gəlir. Belə ki, 1-ci maddənin II hissəsində qeyd olunur ki, «əməliyyat-axtarış fəaliyyəti insan həyatının, sağlamlığını, müdafiə etmək məqsədilə həyata keçirilir». Bu təyinatın özü əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi zamanı insanın səhhətinə və ətraf mühitə ziyan vurulmasını yolverilməz edir.

Həmin maddənin IV hissəsinə əsasən, əməliyyat-axtarış tədbirləri tətbiq edilərkən, əməliyyat-axtarış fəaliyyətinin subyektinin müvəkkil edilmiş şəxsləri həmin tədbirlərin cinayətkar qəsdlərin dövlətin və cəmiyyətin mənafeyinə vura biləcəyi ziyanın ictimai təhlükəlilik dərəcəsinə uyğunluğunu gözləməyə borcludurlar. Bu maddəni şərh edərkən, belə bir nəticə çıxarmaq olar ki, ƏAF subyektləri keçirilən tədbirin cinayətkar qəsdlərə adekvat olmasını xüsusi diqqət yetirməlidirlər. Yəni, əməliyyat-axtarış tədbirlərinin keçirilməsinə əsas olan məlumat törədilməsi planlaşdırılan, törədilən cinayət əməlinin dövlətin və cəmiyyətin mənafeyiniə vura biləcəyi və ya vurduğu ziyanı dəqiq əks etdirməlidir və buna uyğun tədbir seçilməlidir. Ciddi əsaslar olmadan əməliyyat işçisinin istədiyi tədbiri planlaşdırıb həyata keçirməsi yolverilməzdir. Bu cür yanaşma ƏAF subyektlərinin qüvvə və vasitələrinin məqsədəuyğun olmadan istifadəsinin qarşısını alır. Eyni zamanda bu tələbə əməl olunması əməliyyat-axtarış tədbirlərinin daha səmərəli həyata keçirilməsinə zəmin yaradır, əməliyyat işçisinin məsuliyyətinin və özlərinə qarşı tələbkarlığın artmasına səbəb olur.

Yuxarıda qeyd olunduğu kimi, məhdud xarakterli şərtlər mövcuddur ki, həmin şərtlər ayrı-ayrı əməliyyat-axtarış tədbirlərinə şamil olunur. Buna misal olaraq «ƏAF haqqında» Qanunun 10-cu maddəsinin VII hissəsini göstərmək olar. Burada qeyd olunur ki, cinayətkar qruplara və ya kriminogen obyektlərə daxil edilməsi, hüquqi şəxsin yaradılması əməliyyat-axtarış tədbirlərinin, həmçinin narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının nəzarətli göndərişinin tətbiqinə yalnız mütəşəkkil cinayətkar qurumlar tərəfindən hazırlanan və ya törədilən ağır cinayətlərin, habelə xüsusi təhlükəli dövləti cinayətlərin qarşısının alınması, həmin cinayətlərin açılması və onları hazırlayan, törədən və ya törətmiş şəxslərin müəyyən edilməsi ilə əlaqədar yol verilir.

Cinayət Məcəlləsinin 34-cü maddəsinə görə iki və daha çox icraçı birgə iştirak edərək cinayət törətdikdə, «cinayətkar qrup» şəklində fəaliyyət göstərmiş olurlar. Bir və ya bir neçə cinayətin törədilməsi üçün qabaqcadan birləşmiş iki və ya daha çox şəxsdən ibarət olan sabit cinayətkar qrup tərəfindən törədilən cinayət «mütəşəkkil dəstə» tərəfindən törədilmiş hesab olunur.

Ağır və ya xüsusilə ağır cinayətlərin törədilməsi məqsədilə sabit mütəşəkkil cinayətkar qrupun yaradılması və ya eyni məqsədlərlə iki və ya daha çox mütəşəkkil cinayətkar qrupun sabit birliyi «cinayətkar birlik» hesab olunur. «ƏAF haqqında» Qanunun 10-cu maddəsinin 16-cı bəndində qeyd olunan «kriminogen obyektlər» anlayışı Cinayət Məcəlləsində təsnifləşdirilmiş mütəşəkkil dəstələri və cinayətkar birlikləri əhatə edir.

ƏAF subyektinin əməkdaşının və ya onunla konfidensial əsaslarla əməkdaşlıq edən şəxslərin cinayətkar qrupların, kriminogen obyektlərin içərisində fəaliyyət göstərməsi, əməliyyat tapşırığını yerinə yetirməsi onların həyatı üçün hər an təhlükəyə səbəb ola bilər. Belə tədbirin həyata keçirilməsinə kifayət qədər təcrübəli şəxslər cəlb oluna bilər. Bu tədbirin hazırlanması, uğurla həyata keçirilməsi və gələcəkdə heç bir risqə səbəb olmaması üçün kifayət qədər vaxt və vəsait tələb olunur. Bütün bunlar «hüquqi şəxsin» yaradılmasına və narkotiklərin nəzarətli göndərişinə də şamil olunur. Buna görə də qanun belə tədbirlərin keçirilməsi üçün ciddi əsasların olmasını tələb edir. Həmin əsaslar isə mütəşəkkil cinayətkar qurumlar tərəfindən ağır cinayətlərin hazırlanması və ya törədilməsi barədə məlumatın daxil olması, habelə xüsusi təhlükəli dövləti cinayətlərin qarşısının alınması, həmçinin cinayətlərin açılması və onları hazırlayan, törədən və ya törətmiş şəxslərin müəyyən edilməsi zərurətinin yaranması ola bilər.

Beləliklə, əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi şərtləri dedikdə, «ƏAF haqqında» Qanunla müəyyən edilmiş əməliyyat-axtarış tədbirlərinin hazırlanmasının, həyata keçirilməsinin səmərəlililyini və ƏAF prinsiplərinə riayət edilməsini təmin edən xüsusi qaydalar başa düşülür. Bu şərtlər cinayət törətmiş və ya törətməyə cəhd edən ayrı-ayrı fərdlərin və cinayətkarlıqla mübarizədə maraqlı olan cəmiyyətin mənafelərinin tarazlaşdırılmasına xidmət edir.

Əməliyyat-axtarış tədbirlərinin tətbiqi şərtləri Qanunun 13-cü maddəsində öz əksini tapdığı halda, həmin tədbirlərin bilavasitə həyata keçirilmə qaydası həmin qanunun 14-cü maddəsində ayrıca verilmişdir. Həmin maddənin I hissəsinə əsasən, əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi ƏAF subyektinin rəhbərliyinin nəzarəti altında həyata keçirilir. Əməliyyat-axtarış tədbirlərinin keçirilməsi barədə qərarın verilməsi həmin tədbirlərin keçirilməsinə subyekt tərəfindən nəzarətin tətbiqini zəruri edir. Bu nəzarət ƏAF subyektlərinin rəhbərləri tərəfindən şəxsən və nəzarətedici orqanlar vasitəsilə həyata keçirilir. Məsələn, rəhbər bu fəaliyyətdə bilavasitə iştirak etməklə, ona nəzarəti həyata keçirə bilər.

Nəzarətin məqsədi aşağıdakılardır:

- əməliyyat-axtarış tədbirlərinin qanunvericiliyə uyğunluğunun təmin edilməsi;
- normativ-hüquqi aktların tələblərinin pozulması faktlarının, nöqsanların vaxtında aşkar edilməsi və aradan qaldırılması;
- əməliyyat-axtarış tədbirlərini həyata keçirərkən, qanun pozuntularına yol vermiş şəxslərin müvafiq qaydada cəzalandırılması üçün tədbirlərin görülməsi və s.

ƏAF subyektinin rəhbərliyi ƏAF qarşısında duran vəzifələrin həlli zamanı şəxsin hüquq və azadlıqlarının pozulmasına, dövlət və cəmiyyətin maraqlarına dəymiş ziyana görə cavabdehlik daşıyırlar.

ƏAF subyektinin müvəkkil edilmiş şəxsi əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi zamanı bilavasitə və birbaşa rəisinə tabedir. Rəisindən açıq-aşkar qanunsuz əmr və ya göstəriş aldıqda, o, qanunu rəhbər tutmalı və əməliyyat-axtarış fəaliyyəti subyektinin tabeliyi üzrə yuxarı orqana bu barədə məlumat verməlidir. Rəisinin əmrini və yaxud göstərişini yerinə yetirdiyi vaxtda cinayət baş verərsə və ya verəcəyi ehtimal olunarsa, bu barədə tabeçilik üzrə yuxarı orqana, yaxud məhkəməyə şikayət verə bilər. Bu maddədə bilavasitə rəis dedikdə, əməliyyat işçisinin fəaliyyətinə bilavasitə rəhbərliyi həyata keçirən və onun işlədiyi əməliyyat aparatının rəisi vəzifəsini tutan şəxs nəzərdə tutulur. Birbaşa rəis isə əməliyyat işçisinin işlədiyi əməliyyat aparatının rəisindən yuxarı vəzifə tutan, onun tabe olduğu vəzifəli şəxslərdir. Məsələn, ƏAF subyektinin fəaliyyət göstərdiyi hər hansı bir bölmənin tabe olduğu şöbənin, idarənin, baş idarənin rəhbər vəzifəli şəxsləri (rəis və rəis müavini vəzifəsini tutan şəxslər) birbaşa rəis hesab olunurlar.

Rəisinin əmr və və göstərişlərinin qanunazidd olması barədə əməliyyat işçisinin əminliyi onun qanunvericiliyi və ƏAF-nin həyata keçirilməsi qaydalarını dürüəst

bilməsinə əsaslanır. Bu cür əmr və ya göstərişlərin yerinə yetirilməməsinin əsasları əməliyyat işçisi tərəfindən yazılı şəkildə öz rəisinə təqdim olunmalıdır.

ƏAF subyektinin tabeliyi üzrə yuxarı orqan anlayışına aydınlıq gətirərək, onu qeyd etmək olar ki, yuxarı orqan, bölmə üçün şöbə, şöbə üçün idarə, idarə üçün baş idarə və s. hesab olunur. ƏAF subyekti daxilində ən yuxarı instansiya subyektin rəhbəridir (məsələn, DİO sistemində Daxili İşlər Naziri).

ƏAF subyektləri və onların vəzifəli şəxsləri bu fəaliyyəti həyata keçirərkən, dövləti təmsil edirlər. Ona görə də onların qanuni fəaliyyətinə qanunla müəyyən edilmiş şəxslərdən başqa heç kəs müdaxilə edə bilməz. Qanunla müəyyən edilmiş şəxslər dedikdə isə, məhkəmə və prokurorluq ƏAF-nə nəzarəəti həyata keçirən nümayəndələri və ƏAF subyektinin tabe olduğu yuxarı instansiya nəzərdə tutulur. Müdaxilə etmək dedikdə isə, ƏAF-nin necə və hansı istiqamətdə həyata keçirilməsinin müəyyən edilməsi deyil, yalnız qanunçuluğa əməl olunmasına nəzarətin həyata keçirilməsi başa düşülür.

«ƏAF haqqında» qanunun 14-cü maddəsinin IV hissəsinə əsasən, əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi zamanı informasiya sistemlərindən video və səs yazmadan, kino və fotoçəkilişlərdən, həmçinin vətəndaşların həyat və sağlamlığına, ətraf mühitə zərər vurmayan digər texniki və başqa vasitələrdən istifadə edilə bilər.

ƏAT-nin həyata keçirilməsi ilə əlaqədar texniki vasitələrdən istifadə olunması qanunvericiliklə tənzimlənir. «ƏAF haqqında» Qanunun 10-cu maddəsində texniki vasitələrin tətbiq olunmasının şərtləri qeyd olunmuşdur. Belə ki, həmin maddənin VIII hissəsinə əsasən, qanunla müvəkkil edilməmiş fiziki və hüquqi şəxslər tərəfindən ƏAT-nin aparılması, habelə gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələrdən (yəni, əməliyyat-axtarış tədbirləri çərçivəsində informasiyanın gizli yolla əldə olunması məqsədilə xüsusi olaraq yaradılmış, işlənib hazırlanmış, istehsal olunmuş, proqramlaşdırılmış, təkmilləşdirilmiş, avadanlıqlar, cihazlar, qurğular, ləvazimatlar və digər texniki vasitələr) istifadə olunması qadağandır. Bu qadağanın pozulması öz növbəsində CM-nin 302-ci maddəsi ilə cinayət məsuliyyətinin yaranmasına səbəb olur.

Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində texniki vasitələrdən istifadə olunması şərtləri aşağıdakılardır:

- tətbiq olunan texniki vasitələr insan səhhətinə və ətraf mühitə ziyan vurmamalı (mad. 13, III hissə);
- həmin texniki vasitələrin ƏAF-nin həyata keçirilməsinə müvəkkil edilməmiş fiziki və hüquqi şəxslər tərəfindən izlənilməsi, satışı, alınması, ölkəyə gətirilməsi və ölkədən çıxarılması müəyyən olunmuş qaydada lisenziyalaşdırılmışdır;
- həmin texniki vasitələrin növləri dəqiq müəyyənləşdirilməlidir.

«ƏAF haqqında» Qanunun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 11 noyabr 1999-cu il tarixli 296 nömrəli fərmanına görə ƏAF-də istifadə olunan texniki vasitələrin növlərinin müəyyən olunması və onların əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsinə müvəkkil edilməmiş fiziki və hüquqi şəxslər tərəfindən işlənilməsi, istehsalı, satışı, alınması, ölkəyə gətirilməsi və ölkədən çıxarılmasının lisenziyalaşdırılması qaydalarının işlənməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinə tapşırılmışdır. Nazirlər Kabinetinin 23.11.1999-cu il tarixli 234 nömrəli sərəncamı ilə bu vəzifələrin yerinə yetirilməsi məqsədilə təkliflərin verilməsi digər ƏAF subyektləri ilə birlikdə Milli təhlükəsizlik Nazirliyinə həvalə olunmuşdur. Verilmiş təkliflər əsasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11 avqust 2000-ci il tarixli 139-G nömrəli qərarı ilə «ƏAF prosesində gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş xüsusi texniki vasitələrin növlərinin siyahısı» təsdiq edilmişdir.

«ƏAF haqqında» Qanunun 14-cü maddəsinə əsasən, obyektiv səbəblərdən əməliyyat-axtarış tədbirlərinin tətbiqini qeyri-mümkün edən şərait yarandıqda (qarşısı alına bilməyən fövqəladə hadisə baş verdikdə və ya qarşısı alına bilməyən qüvvə mane

olduqda və yaxud ictimai təhlükəsizliyə real təhlükə yarandıqda) tədbirlərin həyata keçirilməsi dayandırılır.

Əməliyyat-axtarış tədbirlərinə aşağıdakı hallarda son qoyulur:

1. «ƏAF haqqında» Qanunun 1-ci maddəsində nəzərdə tutulmuş məqsədlərə nail olunduqda;

2. Haqqında əməliyyat-axtarış tədbiri keçirilən şəxsin hərəkətlərində cinayət tərkibinin mövcudluğu 6 ay ərzində müəyyən edilmədikdə.

Bu o, deməkdir ki, ƏAT-nin keçirilməsi üçün əsas olmuş ilk məlumat 6 ay ərzində öz təsdiqini tapmasa, yəni şəxsin cinayət tərkibli əməli üzə çıxmasa, onda əməliyyat-axtarış tədbiri dayandırılmalıdır. Digər tərəfdən, ƏAT-nin keçirilməsi bu və ya digər cəhətdən vətəndaşların həyatına müdaxilə etməklə, onlar haqqında informasiya toplamaqla və s. ilə bağlıdır. Buna görə də əməliyyat-axtarış tədbiri əsassız olaraq uzun müddət davam etdirilə bilməz.

Həmin maddəyə əsasən, əməliyyat tapşırığını yerinə yetirərkən, ƏAF subyektlərinin müvəkkil edilmiş şəxsin cinayətkar qrupların və ya kriminogen obyektlərin tərkibində olması, habelə bu zaman zəruri özünümüdafiə və son zərurət halında yol verilmiş hərəkətlər Cinayət Məcəlləsinin 36, 38 və 40-cı maddələrinə görə cinayət tərkibi yaratmır. Cinayətkar qruplara və ya kriminogen obyektlərə daxil edilmiş şəxs ifşa olunmamaq üçün həmin qrupun digər üzvləri ilə birgə hərəkət etməli, onların əməllərinin iştirakçısı olmalıdır. Bu əməllərin əksəriyyəti cinayətkar fəaliyyətlə bağlı ola bilər. Burada əməliyyat tapşırığının yerinə yetirilməsindən söhbət getdiyi üçün, onun fəaliyyəti həm də CM-nin 40-cı maddəsində göstərildiyi kimi, «əmrin və ya sərəncamın yerinə yetirilməsi» ilə əlaqədar cinayət tərkibi yaratmır. Əgər şəxsin cinayətkar qruplara və ya kriminogen obyektlərə daxil edilməsi tədbirinin tətbiqi qanunvericiliyin pozulması ilə həyata keçirilmişdirsə, buna görə bu tədbirin keçirilməsinə göstəriş vermiş vəzifəli şəxs məsuliyyət daşıyır. Bu fəaliyyətə görə şəxs özü o zaman məsuliyyət daşıyır ki, o, əmrin və sərəncamın qanunsuz olduğunu bilərək, onu icra etmişdir.

Əməliyyat-axtarış tədbirlərinin təşkili və həyata keçirilməsi, habelə ƏAF sahəsində qanunvericilikdə nəzərdə tutulmuş digər məlumatlar dövlət sirrinin bir növü kimi müvafiq qanunla («Dövlət sirri haqqında» 07.09.2004-cü il tarixli Qanun, ƏAF subyektlərinin daxili normativ aktları) müəyyən edilmiş qaydada mühafizə olunur. Əməliyyat-axtarış fəaliyyətini həyata keçirərkən, dövlət sirri və xidməti sirr sayılan ƏAF-nin təşkilinə, əməliyyat məlumatlarının mənbəyinə, üsul və metodlarına, eləcə də vətəndaşların şəxsi və ailə həyatına aid olan məlumatlar aşkarlanmamalıdır.

ƏAF subyektləri ilə məxfi əməkdaşlıq etmiş və edən şəxslər barədə məlumatlar yalnız həmin şəxslərin yazılı razılığı ilə qanunvericiliklə müəyyən edilmiş qaydada və hallarda aşkarlana bilər.

Yuxarıda qeyd olunan ümumi qaydalar bütün əməliyyat-axtarış tədbirlərinin aparılmasına aiddir. Ümumi qaydalarla yanaşı, xüsusi qaydalar da mövcuddur ki, onlar ayrı-ayrı əməliyyat-axtarış tədbirlərinin aparılmasına aiddir. Bu qaydalar əsasən konstitusion hüquqları məhdudlaşdıran tədbirlərin həyata keçirilməsi ilə əlaqədardır, bununla bağlı məsələlər fənnin növbəti mövzusunda təhlil olunacaqdır.

NƏTİCƏ

Azərbaycan Respublikasının «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunu ilə müəyyən olunmuş əməliyyat-axtarış tədbirlərinin mövcudluğu və onun əməliyyat-axtarış fəaliyyətinin subyektləri tərəfindən tətbiq olunması ağır və xüsusilə ağır cinayətlərlə mübarizənin səmərəliliyini xeyli artırır. Ümumiyyətlə, əməliyyat-axtarış fəaliyyəti sahəsində qanunvericilik əməliyyat-axatrış tədbirlərinin, xüsusilə də insanların konstitusion hüquqlarının məhdudlaşdırılması ilə bağlı əməliyyat-axatrış tədbirlərinin keçirilməsinin yalnız istisna hallarda son zərurət kimi əməliyyat-axatrış fəaliyyətinin və eləcə də, cinayət təqibi vəzifələrinin həllinə başqa yolla nail olmaq mümkün olmayan hallarda və yaxud çətin olan hallarda mümkün olmasını müəyyənləşdirir.

Məhz bu baxımdan əməliyyat-axatrış tədbirlərinin həyata keçirilməsi ilə bağlı bu və ya digər məsələlərin həllinin hüquqi tənzimlənməsini, nəzəri əsaslarını hər bir hüquq-mühafizə orqanı əməkdaşı bilməlidir. Ona görə də əməkdaşlar əməliyyat-axatrış fəaliyyəti sahəsində mövcud olan qanunvericilik aktları mükəmməl öyrənilməli və həmin qanunlardan irəli gələn vəzifələrin yerinə yetirilmə mexanizmini tətbiq etməyi bacarmalıdırlar.

Güman edirik ki, mühazirədə qeyd olunan fikirlər müdavimlərə mövzunun mənimsənilməsində köməklik edəcək, hüquq-mühafizə orqanlarının gənc əməkdaşlarına öz bilik səviyyəsinin artırılmasına imkan yaradacaq.

Tərtib etdi: «DİO-nun ƏAF» kafedrasının baş müəllimi, polis polkovnik-leytenatı

Salmanzadə Nurəddin